
BAKI DÖVLƏT
UNİVERSİTETİ
TARİX YAZAN
MƏZUNLAR
Bakı Dövlət Universitetinin
Vətən müharibəsində şəhidlik zirvəsinə
ucalmış məzunları

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# TARİX YAZAN MƏZUNLAR



MƏCBURİ NÜSXƏ
№

QAF

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121061

BAKI – BDU – 2021

63.3(5Aze) 622,8+74.5(5Aze)
T 26

**Tərtib edən:** **Ramin Səmədov**
BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri

**Redaktor:** **Ələmdar Cabbarlı**
BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent

**Korrektorlar:** **Fidan İsmayılova**
BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi

**Səbinə Muxtarova**
BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi

**Nərmin Hüseynli**
BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin mütəxəssisi

**Tarix yazan məzunlar.** Bakı: Bakı Dövlət Universiteti, 2021. — 100 s.

Kitabda 44 günlük Vətən müharibəsində öz qanları ilə tarix yazmış Bakı Dövlət Universitetinin şəhid məzunları haqqında müəllimlərinin, tələbə yoldaşlarının xatirələri toplanmışdır. Təqdim olunan yazılarda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun sıralarında qəhrəmancasına döyüşmüş, əzəli torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş 19 gəncin şərəfli həyat hekayələri əksini tapır.

Əminik ki, gələcəkdə şəhid məzunlarımız haqqında daha yeni kitablar, tədqiqat əsərləri ərsəyə gələcəkdir.

ISBN: 978-9952-546-55-2

© Bakı Dövlət Universiteti, 2021

# İÇİNDƏKİLƏR

*Ön söz (Elçin Babayev)* .......... *5*

**Bakı Dövlət Universitetinin Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış məzunları** .......... 7

Elşən Fuad oğlu Salayev .......... 10
Ceyhun Nüsrət oğlu Şalıyev .......... 16
Şamil Rəfi oğlu Nəcəfov .......... 20
Manaf Bəhmən oğlu Bəhmənli .......... 24
Nicat Həsən oğlu Əhmədov .......... 28
Cavid Faiq oğlu Manafov .......... 32
Ataməli Seyidməmməd oğlu Musaoğlu .......... 36
Vüqar İlqar oğlu Məmmədov .......... 40
Nurlan Fərrux oğlu Əbilov .......... 46
Şəhriyar Vidadi oğlu Həbibi .......... 52
Yüksəl İlqar oğlu Əlizadə .......... 56
Nadir Arzu oğlu Nadirli .......... 60
Tərxan Zabit oğlu Qurbanov .......... 64
Fikrət Akif oğlu Zeynallı .......... 68
Hüseyn Həsən oğlu Quliyev .......... 74
Tural Yadulla oğlu Eyyubov .......... 80
Kənan Nifdalı oğlu Məmmədov .......... 84
Seyfəddin Məhiyyəddin oğlu Dadaşov .......... 90
Əsəd Cəmaləddin oğlu Əsədov .......... 96

QARABAĞ AZƏRBAYCANDIR!

# ÖN SÖZ

2020-ci il sentyabrın 27-də xain qonşularımızın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə başlayan əks-hücum əməliyyatları düşmən tapdağında olan ərazilərimizin azadlığı uğrunda Vətən müharibəsinə çevrildi. Bu ölüm-dirim savaşında xalqımız Ali Baş Komandanımızın ətrafında dəmir yumruq kimi birləşdi. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı adlandırdığı, hər zaman məzunu olması ilə fəxr edib, yüksək dəyər verdiyi Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, tələbələri və məzunları da Vətən müharibəsinin ilk anlarından - *Bilsin ana torpaq, eşitsin Vətən! Müsəlləh əsgərəm mən də bü gündən* – ovqatı ilə doğma Vətənimizin çağırışına səs verdilər. Universitetin çoxsaylı tələbə və məzunu könüllü olaraq cəbhəyə yollandı. BDU kollektivi ön cəbhədə olduğu kimi arxa cəbhədə də mübarizə apardı, xüsusilə informasiya savaşına özlərinin töhfələrini verdilər.

Müharibənin ilk günlərindən BDU-nun əməkdaşlıq etdiyi dünyanın 200-dən çox ali məktəbinin rektorlarına məktublar ünvanlandı, onlardan ölkəmizin haqq savaşına dəstək vermələri xahiş edildi. Qısa müddətdə dünyanın aparıcı universitetlərindən bu müraciətə cavab kimi dəstək məktubları gəldi, Azərbaycanın ədalətli mövqeyi qətiyyətlə müdafiə olundu. Həmçinin BDU kollektivi adından ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə müraciət ünvanlandı. Müraciətdə Universitet kollektivinin Vətən müharibəsində qələbəyə nail olunması naminə dövlətimizə və ordumuza hər cür dəstək verməyə hər an hazır olduğu ifadə edildi. BDU Elmi Şurasının qərarı ilə Universitetin fondundan və əməkdaşların öz istəkləri ilə onların əməkhaqlarından Silahlı Qüvvələrə Yardım Fonduna ianələr edildi.

Şükürlər olsun, Müzəffər Ali Baş Komandanımızın müdrik və cəsarətli qərarları, döyüşkən ordumuzun yenilməzliyi, qazilərimizin qanı, şəhidlərimizin canı, xalqımızın sarsılmaz birliyi sayəsində Azərbaycan Vətən müharibəsini qalibiyyətlə başa çatdırdı, ərazi bütövlüyümüz təmin olundu,

üçrəngli bayrağımız uzun illər düşmən işğalında qalan bütün torpaqlarımızda ucaldıldı. Qəhrəman oğullarımız Vətən torpağını qanları ilə suvardılar. Suvardılar ki, xalqımızın arzuları göyərsin, soyumuz tükənməsin, ocağımız sönməsin. Yurdumuzun ocağını gur yandıran müqəddəs şəhidlərimizin sırasında 19 nəfər də doğma Universitetimizin məzunlarıdır. Bakı Dövlət Universitetinin Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış məzunları – Elşən Salayev, Ceyhun Şalıyev, Şamil Nəcəfov, Manaf Bəhmənli, Nicat Əhmədov, Cavid Manafov, Ataməli Musaoğlu, Vüqar Məmmədov, Nurlan Əbilov, Şəhriyar Həbibi, Yüksəl Əlizadə, Nadir Nadirli, Tərxan Qurbanov, Fikrət Zeynallı, Hüseyn Quliyev, Tural Eyyubov, Kənan Məmmədov, Seyfəddin Dadaşov, Əsəd Əsədov öz qəhrəmanlıqları ilə doğma Universitetimizin adını daha da ucaltdılar. Onların unudulmaz xatirəsi bizim hər birimiz üçün müqəddəsdir. Universitet kollektivi davamlı olaraq şəhid məzunlarımızın and yerimiz olan məzarlarını, qürur ünvanımız olan ailələrini ziyarət edirlər. Universitetin bütün korpuslarının girişində şəhidlərimizin xatirə lövhələri qoyulubdur. Müqəddəs şəhidlərimizin xatirəsini əbədiləşdirmək məqsədilə Universitetimizin həyatında Memorial kompleks yaradılacaqdır.

Oxuculara təqdim edilən bu kitabda Vətən Müharibəsində şəhid olmuş məzunlarımız haqqında onların müəllimlərinin, tələbə yoldaşlarının xatirələri toplanmışdır. Bu xatirələri həyəcansız oxumaq mümkün deyil. Bu yazılarda Vətən naminə qürur və fəxarət hissi qırmızı xətlə keçir. Müxtəlif talelәri, müxtəlif xarakterləri, fərqli həyat hekayələrini əhatə edən bu yazıları eyni ruh, eyni amal, eyni niyyət birləşdirir. Bu yazıların hər biri özündə Müzəffər Ali Baş Komandanımız, yenilməz sərkərdəmiz İlham Əliyevin çağırışına, müzəffər xalqımızın səsinə səs verərək ölüm-dirim savaşına yollanan və şirin canlarını Vətən uğrunda fəda edən 19 şəhid məzunumuzun qəhrəmanlıqlarını əks etdirir. Bu kitab müqəddəs şəhidlərimizin xatirəsini əbədiləşdirmək yolunda atılan bir addımdır. Gələcəkdə igid məzunlarımız haqqında yeni-yeni kitablar, məqalələr, tədqiqat işləri yazılacaqdır.

Əziz şəhid məzunlarımız, BDU ailəsi Sizi heç zaman unutmayacaq!

Hər birinizin adını daim yaşadacağıq, bizim igid oğullarımız!

Qarabağ Azərbaycandır!

**Elçin Babayev**
Bakı Dövlət Universitetinin rektoru





# Bakı Dövlət Universitetinin Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış məzunları





**Salayev Elşən**
**Fuad oğlu**
Tarix fakültəsi



**Şalıyev Ceyhun**
**Nüsrət oğlu**
Hüquq fakültəsi



**Nadirli Nadir**
**Arzu oğlu**
Biologiya fakültəsi



**Qurbanov Tərxan**
**Zabit oğlu**
Biologiya fakültəsi



**Eyyubov Tural**
**Yadulla oğlu**
Tətbiqi riyaziyyat və kibernetika fakültəsi



**Əlizadə Yüksəl**
**İlqar oğlu**
Tarix fakültəsi



**Zeynallı Fikrət**
**Akif oğlu**
Fizika fakültəsi



**Həbibi Şəhriyar**
**Vidadi oğlu**
Fizika fakültəsi



**Məmmədov Kənan**
**Nifdalı oğlu**
Filologiya fakültəsi





**Quliyev Hüseyn**
**Həsən oğlu**
Tarix fakültəsi



**Məmmədov Vüqar**
**İlqar oğlu**
İlahiyyat fakültəsi



**Nəcəfov Şamil Rəfi oğlu**
Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi



**Dadaşov Seyfəddin**
**Məhiyəddin oğlu**
Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi



**Bəhmənli Manaf**
**Bəhmən oğlu**
Mexanika-riyaziyyat fakültəsi



**Əhmədov Nicat**
**Həsən oğlu**
Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi



**Manafov Cavid**
**Faiq oğlu**
Sosial elmlər və psixologiya fakültəsi



**Musaoğlu Ataməli**
**Seyidməmməd oğlu**
Sosial elmlər və psixologiya fakültəsi



**Əbilov Nurlan**
**Fərrux oğlu**
Coğrafiya fakültəsi



**Əsədov Əsəd**
**Cəmaləddin oğlu**
Sosial elmlər və psixologiya fakültəsi



## Elşən Fuad oğlu Salayev

8 iyun 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur.

2015-2019-cu illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alıb.

18 noyabr 2020-ci ildə Tərtər rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə* ***"Vətən uğrunda"*** *medalı ilə təltif olunub.*







# BÜTÜN AZƏRBAYCAN SƏNİNLƏ FƏXR EDİR

Onu qapını döyməsindən tanıyırdım və həmişə də otağa daxil olarkən növbəti atacağı addımı təxmin edirdim və heç zaman da yanılmırdım. Çünki o, hər hərəkəti, danışığı, rəftarı, özünəməxsus nəzakəti ilə fərqlənirdi. Bu təkcə ailə və məktəbdən gələn tərbiyənin məhsulu deyildi, həm də, daşıdığı genlərin təzahürü idi. Mən bunu ilk tanışlığımızdan hiss etmişdim. Elşən o tələbələrdən və sözün əsl mənasında o şəxsiyyətlərdən idi ki, onlar üçün şəxsi mənafe deyilən anlam yox dərəcəsindədir. Belə insanları daim cəmiyyətin, xalqın rifahı və ən əsası Vətənin bütövlüyü ideyası düşündürür.

Bəli... Elşən tam fərqli idi. Tələbə var ki, biliyi ilə, bəziləri əxlaqı ilə, çoxu orta biliyə malik olaraq onu təqdimetmə qabiliyyətinin yüksəkliyi ilə və s. fərqlənirlər. Müəllimlərin yaddaşında da onlar bu və ya başqa keyfiyyətləri ilə yadda qalırlar. İllər, on illər keçdikcə yaddaş zəifləyir, onların əksəriyyəti xatirələrdən silinirlər. Bu, təbiidir. Amma elə tələbələr də var ki, ürəklərdə əbədi yer alırlar. Elşən belə tələbələrdən idi. Şəxsən dərs deməsəm də, tez-tez hər hansı bir sualla bağlı yanıma gəlir və özümüz hiss etmədən bəzən saatlarla həmsöhbət olurduq. Onun erudisiyası yüksək, intellekti zəngin idi. Dünyagörüşü ilə isə zamanı qabaqlamışdı. Bir sözlə, təhsil aldığı tələbə dostlarından irəlidə idi. İngilis və türk dillərini mükəmməl bilməsi müzakirə obyekti olan problemlə bağlı söhbətimizi daha maraqlı edirdi.

Onunla hər görüşdən sonra tam olaraq bu qənaətə gəlirdim ki, Tarix fakültəsi Elşənin simasında cəmiyyətimizə lazım olan əsl vətəndaş yetişdirir. Gələcəyimiz üçün arxayın olurdum. Bu söhbətlər zamanı heç vaxt vətənpərvərlikdən danışmazdı. Səbəb bəlli idi... 44 günlük müharibə vaxtı əsgəri xidmətdə olduğunu bilmirdim. Amma bir şeyi qəti bilirdim. O, mülki işdə olsaydı belə könüllü kimi ön sıralarda vuruşacaqdı. Çünki Elşən o şəxsiyyətlərdəndir ki, problemi özü həll edə biləcəyi təqdirdə heç vaxt başqasına saxlamazdı. Müharibə vaxtı dostluq etdiyim bir nəfərin harda olduğunu məndən soruşanda, yaşının 45 olmasına baxmayaraq tərəddüd etmədən

müharibədədir dedim və yanılmadım. Müharibədən sonra onun haqqında yazılan maraqlı bir fikir diqqətimi çəkdi. Elə bil Elşən üçün yazılmışdı. Kiçik düzəlişlərlə nəzərinizə çatdırıram: "Elşən Qələbə ilə başa çatan Vətən Müharibəsinin Qalibidir. Heç vaxt özündən çıxmaz, mənasız mübahisələrə baş qoşmaz, sinəsinə döyməzdi. Müharibə başlayarkən mülki vəzifədə və ya tələbə olsaydı belə heç kimin xəbəri olmadan könüllü yazılıb cəbhəyə gedəcəkdi. Çünki Vətənin bütövlüyü ideyası onun qəlbinə hakim kəsilmişdi. Özü Vətəni bütövləşdirmək yolunda canını verəcəyi halda problemi gələcək nəsillərə saxlamazdı. Elşən müharibədə şəhidlik zirvəsinə yüksəldi. Amma Elşən müharibədən sağ-salamat gəlsəydi belə etdiyi qəhrəmanlıqlardan danışmayacaq və qənimətlər fonunda çəkdirdiyi şəkilləri paylaşmayacaqdı. Belə hərəkətlər onun təbiətinə zidd idi. Çünki təmkinli və həddən artıq sadə və təvazökar idi".

Elşən, sağ ol ki, Azərbaycan torpaqlarının özümüzə qayıtmasında övlad payını verdin. Biz səninlə hər zaman fəxr edəcəyik. Nəinki ailə üzvlərin və dostların, nəinki tələbə yoldaşların və doğma Tarix fakültən, nəinki məzunu olduğun BDU-nun çoxminli kollektivi, bütün Azərbaycan gəncliyi səninlə fəxr edəcək. Ruhun şad olsun, Elşən...

**İqbal Ağayev**
Tarix fakültəsi
Asiya və Afrika ölkələri tarixi
kafedrasının müdiri, dosent





# SAVADI, BACARIĞI, QABİLİYYƏTİ İLƏ FƏRQLƏNİRDİ

Onlara "Slavyan ölkələri tarixi" fənnini tədris edirdim. İlk olaraq qeyd edim, qrup nümayəndəsi kimi çox məsuliyyətli tələbə idi. Çox savadlı və zəkalı olması ilə diqqətimi çəkmişdi. Mən məşğələləri simulyasiya şəklində təşkil edirdim. Hər dərs bir mövzu müzakirə olunurdu. Mövzuların müzakirəsi zamanı gözəl təhlillər aparır və dəyərli fikirlər söyləyirdi, özünəməxsus yanaşması olurdu. Həmişə ona deyirdim ki, sən beynəlxalq əlaqələr sahəsində çox yaxşı mütəxəssis kimi yetişə bilərsən. O isə ən çox arxeologiyanı sevdiyini bildirirdi. Hətta bir neçə arxeoloji qazıntılarda iştirak etmişdi. Hər dəfə bunu böyük həvəslə danışır və gələcəkdə arxeoloq olacağını qeyd edirdi. Savadı və bacarığı, tarixi hadisələrə yanaşma tərzi, müxtəlif mövzularda müzakirələr aparmaq qabiliyyəti onu fərqləndirirdi. Çox gözəl dil biliklərinə malik idi. Hətta universitet illərində öz bacarığı ilə Erasmus+KA107 layihəsi çərçivəsində Türkiyənin Sivas Cumhuriyyət Universitetində bir müddətlik təhsil almaq hüququ əldə etmiş və təhsilini müvəffəqiyyətlə başa vurmuşdu. Elşən hərbi xidmətə çox həvəsli idi. Silahlı Qüvvələrlə bağlı sərgilərə getməyi çox sevirdi. Sonra da bu sərgilər haqqında çox həvəslə danışardı.

Elşən mənim yadımda ağıllı, savadlı, bacarıqlı və vətənpərvər tələbə kimi qalacaq. O, torpaqlarımızın azadlığı uğrunda ən yüksək pilləyə - şəhidlik zirvəsinə yüksəlib. Allah rəhmət eləsin.

**Əsgər Zeynalabdinov**
Tarix fakültəsi
Slavyan ölkələri tarixi
kafedrasının müəllimi

# QƏLBİMİZDƏ XOŞ XATİRƏLƏRİ İLƏ DAİM YAŞAYACAQDIR

Mən Elşəni birinci kursa qəbul olandan sonra təşkil olunmuş sənəd qəbulu zamanı yaxından tanımışdım. Özünün savadı, intellektual zəkası ilə ətrafının dərin hörmətini qazanmışdı. Təhsil aldığı dövrdə onun heç vaxt akademik borcu qalmamışdı. Məhz müsbət keyfiyyətləri, idarəetmə bacarıqları, yüksək savadı və xarici dil bilgilərinə görə (ingilis və rus dillərini mükəmməl bilirdi) qrup nümayəndəsi təyin olunmuşdu. Bunun da məntiqi nəticəsi kimi dərslərdə və imtahanlarda yüksək nəticələr əldə edirdi. Hər zaman özünün qabiliyyəti və xüsusi bacarıqları ilə seçilirdi. Universitetdə, eləcə də fakültə daxilində təşkil olunan müxtəlif tədbirlərdə hər zaman həvəslə iştirak etmiş və tələbə yoldaşlarına nümunə olmuşdu. Bundan əlavə o həm beynəlxalq həm də, respublika əhəmiyyətli tədbirlərdə iştirakçı olmuşdu. 2017-ci ildə təşkil olunmuş İslam Həmrəliyi Oyunları idman yarışlarında könüllü olmaqla həm öz ailəsini, həm də ikinci ailəsi olan universitetimizi yüksək səviyyədə təmsil etmişdi. 3-cü kursda oxuduğu zaman Erasmus+KA107 proqramı çərçivəsində Türkiyə Cümhuriyyətində 6 aylıq kurs keçmiş və orada da Vətənimizi və Universitetimizi layiqli şəkildə təmsil etmişdi.

Elşən torpaqlarımızın azad olunması uğrunda başlayan 44 günlük Vətən müharibəsində mənfur düşmənə qarşı neçə-neçə igid Vətən övladları ilə çiyin-çiyinə döyüşmüş və Vətən uğrunda şəhid olmuşdur. Allah rəhmət eləsin. Vətənin igid oğlu və Universitetimizin şəhid məzunu kimi Elşən hər zaman bizim qəlbimizdə xoş xatirələri ilə yaşayacaqdır.

**Vasif Nəbiyev**
Tarix fakültəsinin tyutoru







## Ceyhun Nüsrət oğlu Şalıyev

20 may 1994-cü ildə Gəncə şəhərində anadan olmuşdur.

2011-2015-ci illərdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb.

1 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə **"Vətən uğrunda"** və **"Füzulinin azad olunmasına görə"** medalları ilə təltif olunub.*







# TƏLƏBƏM ŞƏHİD CEYHUN ŞALIYEV HAQQINDA XATİRƏLƏRİM

Bu vaxta kimi yazdığım xatirələrdən çox fərqlənir bu xatirə... Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin 2015-ci il məzunu Ceyhun Nüsrət oğlu Şalıyev haqqında xatirə yazmaq mənə çox çətindir, amma eyni zamanda şərəflidir. Çətindir ona görə ki, cəmi 26 il ömür sürmüş, arzularının qanadlanan çağında dünyadan köçərək, valideynlərinin, doğmalarının, onu tanıyanların qəlbində ağır nisgil və kədər hissi qoymuş, əbədi xatirəyə dönmüş bir gənc haqqında yazıram. Lakin bu xatirələrimi qələmə alarkən qəlbimdə həm də bir qürur hissi duyuram, belə igid bir gəncin, Vətənini canından çox sevən, onun yolunda şəhid olan bir tələbənin müəllimi olduğum üçün fəxr edirəm.

Müharibənin ilk həftəsi idi, cəbhə boyu qanlı döyüşlər gedirdi. Fakültəyə getmişdim. Dekanlığın işçisi, əvvəllər tələbəm olmuş Nuray xanım mənə onunla bir qrupda oxuyan Ceyhun Şalıyevın şəhid olduğunu dedi. Çox ağır xəbər idi...

Tələbə kimi Ceyhun xatirələrimdə çalışqan, məsuliyyətli, olduqca mədəni davranışlı bir gənc kimi qalıb. Hüquq fakültəsinin tələbəsi adını yüksək balla qazanmış Ceyhun həm savadı, həm də dünyagörüşü ilə seçilirdi.

Orta məktəb müəllimlərindən fərqli olaraq, biz adətən dərs dediyimiz tələbələrin ailə mühitindən, valideynlərindən məlumatlı olmuruq. Ceyhunun valideynlərini, yaxınlarını o şəhid olandan sonra tanıdım. Sadə, zəhmətkeş, oğul itkisi kimi ağır bir dərd daşıyan ailə... Bununla belə, ətrafdakılara, onların dərdinə şərik olan hər kəsə mehribanlığını saxlayan ailə. Anası mənim Ceyhunun müəllimi olduğumu bildikdə, onun necə həvəslə dərslərə hazırlaşdığını, sevinclə tədrisdə lazım olan kitabları, məcəllələri aldığını, hətta pəncərə qarşısındakı masada əyləşərək imtahanlara necə hazırlaşması haqqında danışdı. Ceyhunun uşaqlıq illərindən, məktəbdəki uğurlarından, idmandakı qələbələrindən məlumat aldıqca bir daha başa düşdüm ki, Vətən şəhidləri zirvəsinə yalnız seçilmişlər ucala bilir. Ceyhunun müxtəlif sahələr-

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121061

də sayılmaz dərəcədə qazandığı fəxri diplomları, uğurları onun necə bacarıqlı, çalışqan, mübariz bir şəxsiyyət olmasının sübutu idi.

26 illik qısa həyat yolunda Ceyhun xeyli nailiyyətlər qazanmış, seçdiyi peşəyə yiyələnmiş, 2015-2016-ci illərdə həqiqi hərbi xidmət borcunu yetirərək, həm də Aprel döyüşlərində iştirak etmişdi.

Şükürlər olsun ki, Vətən müharibəsi nəticəsində illərlə işğal altında olan ərazilərimiz azad olundu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi və Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş qabiliyyəti, xalqın birliyi bu qələbəni bizə qismət etdi. Vətənin azadlığı uğrunda canını fəda etməkdən çəkinməyən Ceyhun Şalıyevin timsalında minlərlə cəsarətli, vətənpərvər gənclərimiz cəbhədə gedən qanlı döyüşlərdə uca şəhidlik zirvəsinə yüksələrək Azərbaycan tarixinə şərəfli bir səhifə yazdılar.

Mayın 20-də Ceyhunun ad günü idi. Onsuz keçən ilk ad günü... Şübhəm yoxdur ki, yaşasaydı hüquqşünas kimi parlaq bir karyera quracaq, ailə sahibi olacaqdı. Amma Ceyhun Şalıyev bütün yüksəkliklərdən ucada dayanan şəhidlik zirvəsinə ucaldı və xatirələrdə həmişə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin şəhid məzunu kimi yaşayacaq. Vaxtı ilə Ceyhunun mühazirələr dinlədiyi auditoriyalarda, bundan sonra yeni tələbə nəsillərinin dinləyəcəyi mühazirələrdə onlara ilk olaraq Ceyhun haqqında məlumatlar veriləcək, onun qəhrəmanlığı yad ediləcək.

Buna heç kimin şübhəsi yoxdur. Amma nədənsə mənim gözümün önündən tələbəm Ceyhun Şalıyevin məzarı üstünə qoyulmuş Cinayət Məcəlləsi və Mülki Məcəllə heç çəkilmir... Allah rəhmət eləsin, Allah doğmalarına səbr versin.

Vətən, başın sağ olsun!

**Şəhla Səmədova**
Hüquq fakültəsi
Cinayət hüququ və kriminologiya
kafedrasının müdiri, professor





# UNUTMADIQ... UNUTDURMAYACAĞIQ...

Vətənini hamıdan və hər şeydən çox sevən qəhrəmanımız, fəxrimiz - Vətən müharibəsində şəhid olan Ceyhun Nüsrət Oğlu Şalıyev... 2011-ci il... 15 sentyabr... Hüquq fakültəsi, 1309-cu qrup, rus bölməsi... Ən yüksək bal toplayaraq qəbul olan tələbələr sırasında Ceyhun da var və ilk tanışlığımız o vaxtdan başlayır. Oxuduğu müddətdə öz ağlı və zəhməti ilə seçilirdi. Ceyhunun hər bir mövzuda öz fikri var idi. Mübahisə etməyi sevmirdi, lakin həmişə öz fikrində qalırdı. Ən çox işlətdiyi sözlər isə - "İnşallah, xeyirlisi, qismət və görək necə olacaq" - idi. Qrup olaraq çox çətin imtahanlarımız və ya nəsə problemimiz olanda hər kəs narahat olurdu, hamımız vəziyyətdən fərqli-fərqli çıxış yolları axtarırdıq. Ceyhundan başqa. O, hər şeyi olduğu kimi qəbul etməyi bacarırdı. "Nə edə bilərik, əlimizdən bir şey gəlmir" - deyərək bizi reallığı qəbul etməyə alışdırırdı. Ceyhunun sirli, kədərli, qəribə anlamlı baxışları var idi. Biz o vaxt ağlımıza belə gətirmirdik ki, bir qəhrəmanla qrup yoldaşıyıq.

2015-ci ildə Hüquq fakültəsini bitirir. 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olur. İşə düzəlir və yavaş-yavaş arzularının ardınca gedir. Ceyhun hər zaman Vətən uğrunda canını qoyan qəhrəmanlarımızdan çox danışırdı, "biz hamımız onları tanımalıyıq" - deyirdi. 2020-ci ilin sentyabr ayında Ceyhun könüllü olaraq ordu sıralarına qoşulur. Oktyabrın 1-də qəhrəmancasına şəhid olur. Ali Baş Komandan İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Ceyhun "Vətən uğrunda" medalı ilə təltif edilir.

Həmişə tələbələrə, gələcək nəsillərə səni nümunə gətirəcəyimə söz verirəm. Bizim hamımızın arzularında olan bir yerdə - Cənnətdə olduğunu bilirik... Səninlə fəxr edirik! Səni və sənin simanda bütün şəhidlərimizi unutmadıq və unutdurmayacağıq.

**Nuray Əliyeva**
tələbə yoldaşı,
Hüquq fakültəsinin tyutoru



## Şamil Rəfi oğlu Nəcəfov

4 fevral 1997-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2014-2018-ci illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində bakalavr, 2018-2020-ci illərdə isə magistratura təhsili alıb.

1 oktyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Hərbi xidmətlərə görə"*** *və* ***"Kəlbəcərin azad olunmasına görə"*** *medalları ilə təltif olunub.*







# YADDAŞLARDA QALAN TƏLƏBƏ...

Fakültəmizdə elmi və tərəqqi mövzusunda yazıları olan tələbələrimizin sayı çox olmağına baxmayaraq, bəzi tələbələrimizin araşdırma təşəbbüsü, və elmi səviyyəsi xüsusilə üstünlük təşkil edir. Şamil də fakültə həyatında mənim yaddaşımda o cür qalan tələbələrdən idi. Onun yazıları, araşdırdığı mövzuları və oxuduğu kitabları sadalayanda onun haqqında gələcək üçün müsbət düşünməmək mümkün deyildi.

Müharibə zamanı fakültə tələbələrimizdən üzücü xəbərlər gəlməməsi üçün çox ümidli idim, lakin qədər-qismətdən qaçmaq olmur. Üzücü xəbəri eşitdikdən sonra - insan necə yaşayırsa, eləcə də dünyasını dəyişir - fikri bir anlıq məni düşündürdü. Həqiqətən də bu sözün bir daha öz əksini tapdığının şahidi olduq. Şəhidlər uca məqam sahibləridirlər, onların hər iki dünyada başları ucadır.

Bütün şəhidlərimizi dərin ehtiram hissi ilə yad edirəm.

**Zeynalabdin Həsənalıyev**
Beynəlxalq münasibətlər və
iqtisadiyyat fakültəsinin dekanı, professor

# FƏXR EDİRƏM Kİ, ONU TANIMIŞAM

Şamil haqqında danışmaq bizim üçün ağırdır, həmçinin qürurvericidir. O, hər zaman öz aktiv fəaliyyətilə seçildiyi kimi, yazdığı elmi məqalələri, yazıları hər zaman ixtisası üzrə müəllim və tələbə yoldaşları ilə müzakirə etməyi artıq bir adət halını almışdı. İxtisasını bilən bir tələbə, təlim və tərbiyəsi ilə də öndə olması onun şəhid olması xəbərini bizim üçün daha da ağırlaşdırdı. Onun fakültəmizdə həm bakalavr, həm də magistr təhsili alması, bizim onu daha yaxından tanımağımıza səbəb olmuşdu. Sosial aktivliyi də Şamilin fakültə fəallarından olmasının səbəblərdən biri idi. Vətənpərvərlik ruhunda tədbirlərin təşkilində yaxından iştrakı onun rəhbərlik tərəfindən fəal gənc kimi yaddaşlarda qalma səbəblərindən idi.

Şamilin vətənpərvər gənc kimi müharibəyə getməyi çox təbii idi. Şamilin şəhid xəbərini eşitmək bizim üçün ağır zərbə oldu. Onun kimi gələcəyi parlaq bir gəncin ömrünün baharında şəhid olması, ali məqama ucalması fəxr doğuran bir hadisə olduğu qədər də bizi kədərə qərq edən ağır hadisə idi.

Çox fəxr hissi duyuram ki, Şamil kimi bir şəxsi tanımışam. Hər zaman fəxrlə şərəfli həyat yolu keçmiş tələbəmizi xatırlayacağıq.

**İkram Cəbrayılov**
Beynəlxalq münasibətlər və
iqtisadiyyat fakültəsinin
dekan müavini, dosent







## Manaf Bəhmən oğlu Bəhmənli

2 yanvar 1998-ci ildə Yevlax şəhərində anadan olmuşdur.

2015-2020-ci illərdə Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində təhsil alıb.

27 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə* ***"Vətən uğrunda"*** *medalı ilə təltif olunub.*







# TORPAQ , UĞRUNDA ÖLƏN VARSA, VƏTƏNDİR!

Xalqımızın milli birliyi, Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük Vətən müharibəsində özünü daha bariz şəkildə göstərdi. Bu oğullar özlərini xalqımızın əsrlərin sınağından çıxmış milli xüsusiyyətlərinin mahir daşıyıcıları kimi göstərdilər. Onların qəhrəmanlıq nümunələrində xalqın, millətin köklü duyğuları yaşayır. Milli mentalitetimiz, milli ləyaqətimiz məhz xalqın qiymətli potensialı olan belə oğulların çiyinlərində yüksəlir. Bu gün torpaqlarımızı erməni tapdağından azad edərkən şəhid olmuş əsgərlərimizə Allahdan rəhmət diləyirik!

Şəhidlik Vətənə məhəbbətin zirvəsidir. Şəhidlik adi ölüm deyil, Vətən, Torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. Şəhidlik - verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir. BDU-nun Mexanika-riyaziyyat fakültəsinin şəhid məzunu Manaf Bəhmənli də müqəddəs məqama – şəhidlik zirvəsinə ucalaraq adını şanlı tariximizə əbədi yazan qəhrəman oğullarımızdandır. O, təhsil aldığı müddətdə, özünün həm tərbiyəsi, həm də elmə və biliyə marağı ilə bütün müəllimlərinin və tələbə yoldaşlarının qəlbinə yol tapa bilmişdi. Həqiqətən də şəhidlər ölmürlər, onlar hər zaman bizim qəlbimizdə özlərinə əbədi məskən salırlar. Universitetimizin və fakültəmizin bütün kollektivi daim şəhidlərimizlə qürur duyacaq, onların əziz xatirəsini əbədi olaraq yaşadacaqdır. Yerin behişt olsun, Manaf! Sizlər yaşatdınız bu Vətəni!

Torpaq, uğrunda ölən varsa, Vətəndir!

**Etibar Əhmədov**
Mexanika-riyaziyyat fakültəsinin
dekan müavini

# ŞƏRƏFLİ ÖMÜR YOLU

Manaf Bəhmənli 2015-ci ildə orta məktəbi bitirdikdən sonra ali məktəbə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin riyaziyyat ixtisasının rus bölməsinə daxil olmuşdu. Oxuduğu müddətdə özünü çalışqan tələbə kimi göstərmiş, ona dərs deyən müəllimlərin və tələbə yoldaşlarının dərin hörmətini qazanmışdı.

Onun böyük bacısı Minə Bəhmən qızı Bəhmənli də 2013-2017-ci illərdə Mexanika-riyaziyyat fakültəsinin riyaziyyat müəllimliyi ixtisasının rus bölməsinin tələbəsi olmuş, qrup nümayəndəsi kimi fəaliyyət göstərmiş, fakültənin fəal tələbəsi olmuşdur.

Olduqca qeyrətli və vətənpərvər insan kimi tərbiyə alan Manaf Bəhmənli ali məktəbin bakalavr pilləsindən sonra Vətən qarşısında öz borcunu yerinə yetirməyə yollanmış, 27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqımızın şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsində iştirak etmişdir.

Manaf Bəhmənlinin vətənpərvər ruhu savaşda onu bir çox qəhrəmanlıqlara sövq etmişdir. O, şiddətli və amansız döyüşlərdə düşmən əsgərlərini məhv etmiş, dəfələrlə döyüş yoldaşlarının həyatını xilas etmişdir.

Bakı Dövlət Universiteti və Mexanika-riyaziyyat fakültəsi daim öz qəhrəman məzunu Manaf Bəhmənli ilə fəxr edəcək, onu heç vaxt unutmayacaq, onun keçdiyi qısa, lakin olduqca şərəfli omür yolu istər Mexanika-riyaziyyat fakültəsinin tələbələrinə, istərsə də Bakı Dövlət Universitetinin bütün tələbələrinə örnək olacaqdır.

**Sərdar Əliyev**
Mexanika-riyaziyyat fakültəsinin
dekan müavini, dosent







## Nicat Həsən oğlu Əhmədov

22 sentyabr 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur.

2016-2020-ci illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində təhsil alıb.

8 oktyabr 2020-ci ildə Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə mərdliklə döyüşərək şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Cəsur döyüşçü"*** *və* ***"Vətən uğrunda"*** *medalları ilə təltif olunub.*







# ZİRVƏLƏRƏ UCALDI...

Əhmədov Nicat.... Adı sinif jurnalında əvvəldə olan, özü isə arxa sırada oturmağı sevən tələbəm. Nicatın adı gələndə hər zaman xatirimə adını səslədikdə gülümsəyərək, təəccüblə "Mən?" - deyə cavablayarkən gözündəki məsum uşaq baxışları və saf təbəssümü yadıma düşür. Onun qəlbindəki təmizliyi duymaq üçün gözlərini görmək kifayət idi. O məsum baxışlı insanın necə cəsur, mərd ürəyi var imiş. Ona həmişə - "evin balacasısan yəqin ki?" - deyirdim. O isə gülürdü, sən demə o, evin ən böyük övladı imiş. Tez böyüdü. Hamıdan böyük oldu Nicat...

Hər bir müəllim kimi tələbələrimə daim ən yüksəklərdə olmalarını, layiq olduqları yerlərə çatmalarını arzulamışam. Nicat isə sonsuz bir zirvəyə çatdırdı özünü.

Ailəsinə və onu sevən qrup yoldaşlarına səbr diləyirəm.

Nicatı heç zaman unutmayacağıq, unudulmağa qoymayacağıq!

**Fidan Məmmədli**
müəllimi

# O, UNUDULMAZDIR...

Nicat mənim qrup yoldaşım, həm də yaxın dostum idi. Həmişə düşünürdüm ki, kaş Nicatı daha əvvəldən tanıyaydım. Onun şəhid olması xəbəri mənim üçün 22 yaşıma qədər aldığım ən ağır xəbər idi. Çünki belə gənc yaşda öz yaxınını, dostunu itirmək həqiqətən də çox ağırdır. Nicat deyib-gülməyi çox sevən, mehriban, ağıllı və çox zarafatcıl bir insan idi. Qrup yoldaşları onun zarafatları, deyib-gülməyi ilə şənlənirdi. Nicat haqqında danışan hər kəs onun barəsində ancaq gözəl xatirələr danışır. Axı Nicat heç zaman heç kəsi incitməyib. Bütün qrup yoldaşları ilə mehriban davranıb, qrupun bütün şənliklərinin bəzəyi olub Nicat... Heç unutmaram, Nicat şəkil çəkdirməyi çox sevirdi. Əsgərliyə getməmişdən əvvəl – son məzun çəkilişimizdə onunla şəkil çəkdirməyimiz alınmamışdı. Həmin günün axşamı evə getdikdən sonra "Mən əsgər gedirəm, şəkil çəkdirmədin mənimlə" - yazmışdı. O qədər pis olmuşdum ki, bu məsələyə görə. Dedim: - "Bağışla, Nicat. İnşallah əsgərlikdən qayıdanda çoxlu şəkillər çəkdirərik". Kaş şəkil çəkdirəydim həmin gün...

Mən fəxr edirəm ki, mənim uca zirvələrə layiq olan dostum olub. Nicat hər zaman qəlbimizdə ən sevimlimiz, ən gülərüzlümüz, ən mehribanımız kimi bizimlə birlikdə yaşayacaq. O, unudulmazdır.

Allah rəhmət eləsin. Ruhu şad olsun!

**Aynur Mustafayeva**
tələbə yoldaşı





# ONU HƏMİŞƏ YANIMIZDA GÖRMƏK İSTƏYİRDİK

Nicatla biz əvvəldən tanış idik. 2-ci kursdan isə yaxın dost olduq. Dərsdən sonra birlikdə vaxt keçirərdik, oyunlar oynayardıq. Qrupla keçirdiyimiz heç bir tədbirdə, şad günlərimizdə bizi yalnız qoymazdı. O qədər şən idi ki... Ətrafa yaydığı müsbət enerjiyə görə biz onu həmişə yanımızda görmək istəyirdik. O olmasa sanki dadı-duzu qalmırdı ad günlərinin, bayramların... Nicat həmişə müəllimlərinə, bütün qrup yoldaşlarına böyük hörmətlə yanaşardı. Buna görə müəllimlərimiz də onu çox istəyirdi. Qızlara qarşı isə ayrı hörmət bəsləyirdi, tamam ayrı. Bütün bunlara görə o bizim ən sevimlimiz idi.

Yaxşı yadımdadır, qış günü son dərsə bir paket qovrulmuş fıstıq alıb gəlmişdi, 3-4 nəfər hərəmizə az-az payladı. Biz rəfiqəmlə o qədər bəyəndik ki, yenə istədik. Qalmamışdı paketin içində. Tənəffüs oldu. İkinci 45 dəqiqədə Nicat içəri girdi əllərində bir neçə paket fıstıq. Həyatım boyu yediyim ən dadlı fıstıq idi...

Onun haqqında nə qədər danışsaq, yazsaq da sözlərimiz bitməz. Ruhu şad olsun əziz tələbə dostumuzun.

**Günel Bayramova**
tələbə yoldaşı



## Cavid Faiq oğlu Manafov

4 fevral 1999-cu ildə Bakı şəhərində anadan olmuşdur.

2016-2020-ci illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb.

7 noyabr 2020-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şücaətə görə"*** *və* ***"Cəsur döyüşçü"*** *medalları ilə təltif olunub.*







# HAMIMIZIN QƏHRƏMANI

Cavid həyatımda tanıdığım ən dürüst, ən qayğıkeş, ən yaxşı insan idi. Cavidlə yazışmalarıma, şəkillərimizə baxanda nə qədər doğma, ürəyimə yaxın birini itirdiyimi daha çox başa düşürəm. Cavid bizim qrupun gülən üzü idi. Bizi bir araya toplamaq üçün əlindən gələn hər şeyi edirdi. Kaş onunla daha çox vaxt keçirmək şansımız olsaydı. O dərsdə olmayanda ən çox aranan, ən çox yeri görünənimiz idi. Cavid üçün necə darıxdığımı kəlmələrlə ifadə edə bilməyəcəyimi düşünürəm. Bir gecə onun üçün çox ağlamış, yuxuma gəlməyini istəmişdim Allahdan. Yuxumda gördüm ki, bir oğlan mənə yaxınlaşır və onu Cavidin göndərdiyini deyir. Əlavə eləyir ki, "Cavid mənə tapşırdı sizə deyim ki, qoy Ayşən heç ağlamasın, dinlədiyimiz mahnıları dinləsin, sevinsin". Ölümündən sonra da yaxınlarının üzünü güldürməyi bacaran bir insan düşünün. O bizim hamımızın qəhrəmanı oldu. Hər şeyə görə çox sağ ol, bizim canımız, əziz qardaşımız.

**Ayşən İsayeva**
tələbə yoldaşı

# YADDAŞIMIZDA HƏMİŞƏLİK QALACAQ...

Cavid bizim qrupun ən şən insanı idi. Onun haqqında nə qədər çox danışsaq, yenə də az danışmış olacağıq. Onunla birlikdə keçən 4 ilimiz həm mənalı, həm də bir o qədər özəl olub. Xatirələrinin hər birini tək-tək xatırlayıram. Cavid qrupumuzun ən qayğıkeşi idi. Hər kəslə tək-tək maraqlanardı. Kiminsə üzü gülməsə, o dəqiqə hiss edər, yanına gəlib soruşardı: "Nəsə problemin yoxdur ki? Mən həll edə biləcəyim bir şeydirsə qulluğunda hazıram". Üzümüzü güldürmədən də əl çəkməzdi. O qədər şən və mehriban idi Cavid ... Bir dəfə 8 Mart qadınlar günü təbrikində demişdi: "Mən bir qadının üzündə gülüşə səbəb olanda dünyalar mənim olur". Bütün bayramları, özəl günləri ilk Cavid xatırlayardı, dostlarını, yoldaşlarını təbrik edərdi. Kimsə dərsə gəlməsə, zəng edib səbəbini soruşardı. 3-5 nəfər bir plan qursaq həmişə deyərdi ki: "qrupa da yazın, bəlkə kimsə gəlmək istəyər". Kimsənin qəlbini qırmaq istəməzdi. Universitet və qrupumuz onunla mənalı idi...

Bütün müəllimləri, bizlər, Cavidi tanıyan, tanımayan hər kəsin həyatında iz buraxıb Cavid. Sadəcə bir dəfə dərsi əvəz üçün gələn müəllimlər belə onun barəsində o qədər gözəl sözlər deyirlər ki. Ağlı, dünyagörüşü, mədəniyyəti və xoş rəftarı ilə hər kəs üçün bir nümunə idi Cavid. Necə unuda bilərik ki, Cavidlə olan günlərimizi. Cavid yaddaşımızda həmişəlik qalacaq, xatırlayacağıq onu. Qəlbinin təmizliyi ilə hər birimizə dərs keçdi Cavid. Adının mənası kimi əbədi, daima yaddaşımızda qalacaq Cavid Manafov...

**Aysun Rəsulova**
tələbə yoldaşı





# HƏR BİRİMİZƏ HƏYAT DƏRSİ KEÇDİ...

İlk baxışda rəqəmlər insanların təsəvvüründə hansısa bir fikir formalaşdırmasa da, mənim üçün həyatımın ən gözəl çağları, tələbəlik illərim, sevincli, kədərli bəzən isə bol həyəcanlı ən özəl, sonsuz xatirələri özündə birləşdirən əvəzolunmaz bir dəyərdir. Hansı ki, "1654 A" deyiləndə 4 il ərzində yaşadığım xatirələr məni dərin bir duyğular burulğanına qərq edir. Bu illər ərzində 27 nəfərdən ibarət, bir-birinə möhkəm dəyərlər əsasında bağlanmış güclü bir ailə olmağı bacardıq. 26 bir-birindən gözəl qəlbə sahib insan tanıdım. Yazılara sığmayacaq qədər uzun, vərəqlədikcə yeniliklərlə qarşılaşdığım 26 fərqli həyat hekayələri.

Bunlardan biri də Caviddir. O qədər qürurlu və xoşbəxtəm ki, onun kimi bir qrup yoldaşım olub, ən gözəl illərim onunla eyni partanı bölüşərək, eyni xatirələri yaşayaraq keçib və mənə sözün əsl mənasında bütün keyfiyyətləri ilə mükəmməl olan bir insanı tanımaq şansı yaradıb. Cavid, sanki hər bir davranışından nümunə götürməyimiz, dərs çıxarmağımız üçün bizə göndərilmiş bir hədiyyə idi. O, həyatda kiçik şeylərdən böyük sevinclər qazanan, kədəri özündən və ətrafındakılardan kənarlaşdıran, daima gülümsəyərək hər kəsə pozitiv enerji ötürən təmiz bir qəlbə sahib idi. Hər zaman diqqətcil olması, insanlara göstərdiyi hörmət, ən əsası qadınlara verdiyi dəyərlə yaddaşlara ən gözəl sətirlərlə yazılmağı bacardı. Cavid gedişi ilə hər birimizə bir həyat dərsi verdi. Nə xoş bizə ki, bizlərin həyatından bir Cavid keçdi. Mərhəmətli, sevgi dolu, tərbiyəli, təkcə bizim yox, bütün fakültənin, müəllimlərinin qəlbində taxt qurmağı bacaran bir Cavid. Hal-hazırda onlu xatirələrimi vərəqlədikdə yaşanılmışlar üzümü güldürsə də, bu anılarla yetinməli olduğum, yenilərinin yaşanmayacağı reallığı məni dərin kədərə boğur. Lakin Cavidimiz hər birimizin qəlbində, xatirələrində bizimlə birlikdə sonsuzadək yaşayacaq. "1654 A" səni çox sevir, bizim Ağ göyərçinimiz.

**Sara Məlikova**
tələbə yoldaşı



## Ataməli Seyidməmməd oğlu Musaoğlu

5 mart 1995-ci ildə Bakı şəhərində anadan olmuşdur.

2012-2016-cı illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb.

16 oktyabr 2020-ci ildə Tərtər rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə"*** *və* ***"Cəsur döyüşçü"*** *medalları ilə təltif olunub.*







# VƏTƏNLƏŞƏN TƏLƏBƏM

Müdriklər düz deyiblər ki, torpağa su qarışarsa palçıq, şəhid qanı qarışarsa Vətən olar. Can Azərbaycanımızı ulu Vətən edən onun ərazi bütövlüyü uğrunda göz qırpmadan canını fəda etmiş Vətən övladları olmuşdur. Azərbaycan tarixinin qəhrəmanlıq salnamələri xalqımızın qəhrəman övladlarının şücaəti, cəsurluq nümunələri ilə zəngindir. 44 gün davam edən və şanlı zəfərlə başa çatan Vətən savaşında adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazan şəhidlərimiz, qazilərimiz və dəmir yumruğa dönmüş bütün xalqımız öz adını bu şanlı tarixin ən parlaq səhifəsinə həkk etdi.

Mən uzun müddət Sosial elmlər və psixologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini kimi çalışmışam. İşimlə bağlı həmişə tələbələrimizlə sıx təmasda olmuş, vətənpərvərlik istiqamətində müəyyən işlər aparmışam. Bütün bu təmaslarda tələbələrimizdə həmişə yüksək Vətən məhəbbəti görmüş, işğal altında olan torpaqlarımızın harayına müsəlləh əsgər kimi yetişmək yanğısını hiss etmişəm. Həmin tələbələrdən biri də ağlı, tərbiyəsi, vətənpərvərliyi ilə seçilən, həmişə söhbətlərimizdə tez-tez istifadə etdiyi - "Əvvəl Vətənin bizi həsrətlə gözləyən yağı tapdağında qalan hissəsinin fəryadına yetişəcək, sonra qismət olarsa ixtisasım üzrə peşəmlə məşğul olacam" - söyləyən və bu sözünü əməli ilə tutan Atamәlidir. Onunla aramızda bir qədər fərqli münasibətlərimiz var idi. O, yaşından böyük, öz vətəndaşlıq borcunu yüksək səviyyədə dərk edən, hər hərəkəti, davranışı ilə örnək bir tələbə idi. Qısa zaman kəsiyində şanlı tarixə imza atanlardan ola bildi, ucaldığı şəhidlik zirvəsi ilə vətənləşdi, VƏTƏNƏ döndü bizim əbədiyaşar tələbəmiz Atamәli Musaoğlu!

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin baş kəşfiyyatçısı kimi öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirən Atamәli Musaoğlu əslində Vətən qarşısında hərbi borcunu bir dəfə yerinə yetirmişdi. Hərbi xidmətdən sonra təhsilini magistratura pilləsində davam etdirirdi. Ancaq müharibə başlayan kimi o, Vətən sevdalısı olaraq uzun zaman gözlədiyi tarixi anı əldən verməyərək, - "Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən" - deyərək Vətənimizin ərazi bütövlüyünü bərpa etmək uğrunda

könüllü olaraq ordu sıralarına qoşuldu. Onun ağlı, zəkası, bilik və bacarıqları ilə ordumuza verdiyi töhfələr dillərdə dastandır. Hələ tələbəlik illərində tələbə yoldaşları ilə söhbətlərində tez-tez işlətdiyi bir deyim də bu idi ki, - "soruşma sənə Vətən nə edib, düşün ki, sən Vətən üçün nə etməlisən!" O, həmişə deyirdi ki, analarımız biz oğulları düşmən çəpəri kimi düşünüb dünyaya gətirib, bu gün ana Vətənimizin düşmən çəpəri olmağı bacarsaq, nə xoş bizə. Bəli, bugün tam əminliklə deyə bilərik ki, Ataməli Musaoğlu bir övlad olaraq anasının və ana Vətəninin düşmən çəpəri olmağı bacardı. Bu gün ölkəmizin ərazi bütövlüyü Ataməli Musaoğlu kimi Vətən oğullarının şücaəti, qanı və canı bahasına mümkün olmuşdur.

Oktyabrın 16-da Ağdərə döyüşləri zamanı fədakarcasına şəhid olan Atamәli Musaoğlu tək valideynlərinin deyil, bütün Azərbaycanın oğludur, dünya azərbaycanlılarının qürur ünvanlarındandır. Mən şəhidlərimizə Vətən kimi baxıram və qürur hissi ilə bildirirəm ki, mənim tələbəm Atamәli Musaoğlu Vətən timsallı bir VƏTƏNDAŞ olaraq əbədiyaşarlığa nail oldu. O, ucaldığı şəhidlik zirvəsi ilə bir daha sübut etdi ki, Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Vətən heç zaman öz qanı ilə torpağa müqəddəslik gətirənləri unutmur. Atamәli Musaoğlu şəhidliyi ilə ölümsüzləşdi, əbədiyaşarlıq qazandı. Böyük şairimizin təbirincə desək:

Ölüm sevinməsin qoy! Ömrünü vermir bada!
El qədrini canından daha əziz bilənlər,
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər.

Allah sənə rəhmət etsin, cənnət ünvanlı şəhidimiz!

**Üzeyir Şəfiyev**
Sosial elmlər və psixologiya fakültəsinin
Sosial iş kafedrasının müdiri, dosent





## GƏNCLƏRƏ NÜMUNƏ OLDU

Bizim uşaqlığımız müharibə dövrünə təsadüf etdi. Müharibə dövründə anadan olan uşaqlar daim Vətən həsrətilə böyüdü, daim şəhidlər verməyimizin şahidi oldu. Atamәli Musaoğlu canını Vətən uğrunda qurban verənlərdəndir. Unudulmayan tələbəlik, unudulmayan gənclik yaşadı Atamәli. İstər ailə tərbiyəsi, istərsə də dərsdə nizam-intizamı ilə seçilən bir insan idi. Atamәli qəhrəmanlığı ilə xalqa, millətə, gənclərə nümunə oldu. Və düşünürəm ki, Atamәli şəhid olmasaydı seçdiyi psixoloq peşəsi ilə hər kəsə nümunə olacaqdı. Atamәlinin ən böyük arzusu Bakı Dövlət Universitetində dərs demək idi. İnanıram və ümid edirəm ki, gənc nəsil Atamәlini özlərinə nümunə götürəcək və onun yolunu davam edəcəklər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Ramin Allahverdiyev**
müəllimi



## Vüqar İlqar oğlu Məmmədov

9 yanvar 1994-cü ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2011-2015-ci illərdə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində təhsil alıb.

9 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda"*** *və* ***"Füzulinin azad olunmasına görə"*** *medalları ilə təltif olunub.*







# VƏTƏNİN KEŞİYİNDƏ VÜQARLA DAYANAN VÜQAR

Hərə Tanrının ona bəxş etdiyi ömrü bir cür yaşayır. Yalnız mərd, xalqını və Vətənini böyük məhəbbətlə sevən qartal timsallı insanlar uca zirvələrə yüksələ bilirlər. Belə ömür şərəflidir, əbədidir. Həyatda şücaətlər göstərən, Vətən naminə çarpışan qəhrəmanların adları xatirələrdə yaşayır, onların şərəfinə abidələr ucaldılır, barələrində şeirlər yazılır, mahnılar qoşulur.

Ana yurdumuz Azərbaycan əzəldən qəhrəmanlar diyarı kimi tanınır. Dədə Qorqud dastanımızda yazıldığı kimi qədim Oğuz elində adət imiş: ov ovlamayan, düşmən qarşısına çıxıb igidliklər göstərməyən gənc ad ala bilməzmiş, ailədə, nəsildə belə oğula hörmət göstərilməzmiş. Mərd oğullarımız, qızlarımız tarix boyu Vətənimizin qəhrəmanlıq salnaməsini yaratmışlar.

Xalqımıza xas olan qəhrəmanlıq ənənəsi bu gün də yaşayır. 1990-cı ilin 20 yanvar gecəsində cəsur oğul və qızlarımızın Vətənin müstəqilliyi uğrunda ayağa qalxmaları, silahlanmış qoşunların yolu üstündə əliyalın canlı sədd qurmaları əsl qəhrəmanlıq nümunəsidir. Qarabağ uğrunda müharibədə misilsiz şücaətlər göstərən, ölümləri ilə ölməzlik qazanan şəhidlər tariximizin qəhrəmanlarıdırlar.

Qarabağımızın mənfur düşmən tapdağından azad edilməsi uğrunda canından keçən tələbəm Vüqar haqqında yazacaqlarım məni qüssəyə qərq etsə də, gözümün önünə Vətənim, müqəddəs torpağım gəlir. Bu sətirləri qələmə aldıqda Vüqarın tələbəlik illəri, ona dərs dediyim qısa, lakin xatirələrimdə dərin iz buraxan keçirdiyim hissləri bölüşmək istəyirəm.

Vüqar haqqında bu sətirləri yazarkən xatirələrimdə onun dərs otağına səssiz-səmirsiz daxil olması, dərsə cavab verərkən təmkinli, səbirli hərəkətləri, gələcəkdə Vətənimizin düşmən tapdağından azad olunması uğrunda canından keçən qəhrəman obrazı canlanır.

Bu həqiqətdir ki, şəhidlər ölmür, xalqımızın qəlbində yaşayırlar. Mənim də qəlbimdə onun şərəfli yeri vardır. Mən də Vüqarla fəxr edirəm. Xalqımın şərəfli oğluna həsr etdiyim bu yazını yazaraq gözümün önündə qəhrəman,

Vətəninin keşiyində mərd dayanan Vüqar canlanır. O şəhid oldu, amma torpağının şərəfini qorudu. Mən onu Vətənin Vüqarı adlandırmaq istəyirəm. Təəssüf ki, Vətəni yaşadıb onunla birgə xoşbəxt yaşamaq həmişə mümkün olmur. Lazım gəldikdə sinəni yağı süngüsünə sipər etməli olursan. Bunu bacarıb Vətən uğrunda fəda olanlara şəhid deyirlər. Azərbaycanın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin yolu gənclərimizə örnəkdir. Torpaqlarımızı qorumaq, Vətənimizin gələcəyi naminə şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Müqəddəs kitabımız "Qurani-Kərim" Vətən və vətənpərvərlik məsələsinə çox böyük önəm verir. Peyğəmbərimiz Həzrəti Məhəmməd buyurmuşdur: "Vətəni sevmək imandandır".

Vüqar, sən həmişə bizim xatirələrimizdə yaşayacaqsan. Mən səninlə fəxr edirəm! Ruhun şad olsun!

**Nigar İsmayılzadə**
Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə
dekan müavini, dosent





# QƏHRƏMAN VÜQAR

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın mərd oğulları qəhrəmanlıq salnaməsin yaratdılar, öz qanları ilə müasir tariximizin şanlı səhifəsini yazdılar. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz 30 illik işğala son qoydu. Məhz şəhid və qazilərimizin canı-qanı bahasına torpaqlarımız erməni işğalından azad edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu.

Xalqımıza zəfər sevincini yaşadan oğullardan biri də şəxsən tanıdığım, xasiyyətinə, səmimiyyətinə, Vətən eşqi ilə döyünən ürəyinə bələd olduğum əziz dostum və qrup yoldaşım Vüqar Məmmədovdur.

Vüqar tələbəlik həyatının ilk günlərindən həm təhsil alır, həm də ailəsinə dəstək olmaq üçün işləyirdi. Biz qrup yoldaşları olaraq, onun bu əzminə heyranlıqla yanaşırdıq. O, zəhmətkeş, ailəsinə, elinə-obasına bağlı əsl vətənpərvər idi. Vüqar hər bir Azərbaycan gəncinə sözün həqiqi mənasında nümunə, örnək olacaq şəxsiyyət idi. Tələbəlik illərində iştirak etdiyi diskussiyalarda, qarşılıqlı fikir mübadiləsində hər hansı hadisəyə dair öz subyektiv, lakin məntiqli fikrini ortaya qoyar, istənilən çətin situasiyadan çıxmağı bacarardı. Etdiyimiz söhbətlər zamanı onun Qarabağ həsrəti ilə yaşadığını aydın sezmək olurdu. Qəribəsi budur ki, o, həsrətini çəkdiyi, düşmən tapdağından azad etmək istədiyi Qarabağın, işğal altındakı digər ərazilərimizin üzünü görməmişdi. Lakin genetik olaraq nəsildən nəslə ötürülən sahiblik, yurda bağlılıq hissi, ailəsində, orta və ali təhsil müəssisələrində oxuduğu illərdə aldığı təlim-tərbiyə, tarixi faciələrimizdən çıxardığı nəticə onu daim mübarizəyə səsləyirdi.

Elə bu mübarizə hissinin, Vətənini azad görmək istəyinin təsiri ilə hərbi xidmətini ön cəbhədə çəkməyə üstünlük vermişdi. 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olan Vüqar hərbi yoldaşları ilə birlikdə düşmənə sarsıdıcı zərbələr vuraraq, bir sıra ərazilərə, o cümlədən strateji yüksəkliklərə nəzarəti ələ keçirmişdilər. Məhz bu döyüşlərin nəticəsi olaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan məcburi köçkünlərin öz yurdlarına qayıdışı mümkün olmuşdu. Cocuq Mərcanlıya qayıdışla Böyük Qayıdışın əsa-

sı qoyulmuşdu. Vüqar bütün bu proseslərin iştirakçısı kimi qürurlu və məğrur idi. Hərbi xidmət müddətində Vətənə ləyaqətlə xidmət etdiyindən, Aprel döyüşlərinin iştirakçısı olmasından, hücuma keçən düşmənin qarşısının alınmasından, əks həmlə ilə düşmənin canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsindən böyük fərəh hissi ilə söhbət açardı. Cəmi 4 gün davam edən bu döyüşlərdə Ermənistanın 20 ildən artıq müddətdə möhkəmləndirdiyi müdafiə xəttini əsgərlərimiz bir saat ərzində darmadağın edib düşməni geriyə çəkilməyə məcbur etmişdi. Vüqar bu döyüşlərin qəhrəmanlıq dastanı olmasından, əsgərlərimizin döyüş şücaətindən şövqlə danışardı.

Hərbi xidmətini başa vuran Vüqar mülki həyata qəhrəman əsgər, qazi kimi qayıtmışdı. Özünün, ailəsinin qayğısını çəkmək üçün çalışmış, stabil həyat tərzi keçirməyə başlamışdı. Hər şey axarına düşmüşdü. Lakin Vüqar xəyalən yenə o döyüşlərdə, Ermənistanın işğalına qarşı mübarizədə idi. Aprel döyüşlərinin qısamüddətli olmasını, işğal altındakı torpaqlarımızın tam azad olunmamasını özünə dərd etmişdi. Bununla heç cür barışa bilmirdi. 2020-ci ilin 12 iyul tarixində Ermənistan silahlı birləşmələrinin Tovuz rayonunun Ağdam kəndi ilə sərhədində təxribat törətməsi, hücuma keçərək ətraf əraziləri zəbt etmək istəməsi, hərbçilərmizin şəhid olması Vüqarı yenidən 4 il əvvələ - Aprel döyüşlərinə qaytarmışdı. Ali Baş Komandan, Prezident İlham Əliyevin xalqa müraciətindən dərhal sonra Səfərbərlik Xidmətinə yollanmış, könüllü olaraq döyüşlərdə iştirak etmək istəyini bildirmişdi. Aprel döyüşlərində iştirakı, peşəkar hərbçi kimi təcrübəsi nəzərə alınan Vüqar həmin il sentyabrın 27-də ordu sıralarına çağırıldı. Düşmənə qarşı 13 gün mərdliklə vuruşan, bir çox yaşayış məntəqələrinin işğaldan azad olunmasında iştirak edən Vüqar oktyabrın 9-da şəhidlik zirvəsinə ucaldı.

Vüqar və bütün şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqları sayəsində Vətənimiz azadlığa qovuşdu, düşməni torpaqlarımızdan qovduq. Məhz onların sayəsində gələcək nəsillərin başı üzərindən asılı qalan müharibə və ölüm təhlükəsi birdəfəlik yox oldu, biz qalib gəldik. Bu qalibiyyəti, zəfəri bizlərə yaşadanlar daim hörmət və ehtiramla xatırlanacaq, yad olunacaqlar. Biz də onlarla, o cümlədən Vüqarla fəxr edir, şəhidlərə Allahdan rəhmət, qazilərə can sağlığı diləyirik. Onların Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri müqayisəyə gəlməyəcək dərəcədə böyükdür.

**Bayram İsmayılov**
tələbə yoldaşı







## Nurlan Fərrux oğlu Əbilov

2 avqust 1994-cü ildə Masallı rayonunda anadan olmuşdur.

2011-2020-ci illərdə Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsində təhsil alıb.

Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq yaralanmış, 19 aprel 2021-ci ildə şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Füzulinin azad olunmasına görə", "Vətən uğrunda"*** *və* ***"Cəsur döyüşçü"*** *medalları ilə təltif olunub.*







# ŞƏHİDLƏR BİZİM QÜRUR MƏNBƏYİMİZ, FƏXARƏT YERİMİZDİR

Nurlan Əbilov haqqında xatirələrimi bölüşmək mənim üçün çox çətindir. Dekan kimi fakültəmizdə təhsil alan hər bir tələbənin acısını və sevincini yaxından hiss edib, onlarla bir yaşamışam. Nurlanın şəhadətə qovuşma xəbəri hər birimizi sarsıtdı. Məhz Nurlan kimi igid oğullarımızın qəhrəmanlıqları sayəsində əzəli torpaqlarımız işğaldan azad olundu. Onların qanları, canları bahasına bu gün Qarabağımızın ürəyi olan Şuşada qalib ölkəmizin bayrağı dalğalanır.

Nurlan kimi qəhrəman tələbəmizin olması ilə qürur duyuram, belə bir məzun yetişdirdiyimiz üçün qəlbimiz fəxarət hissi ilə doludur.

Nurlan Əbilov Coğrafiya fakültəsinə 2011-ci ildə qəbul olmuşdu. Təmkini, mədəni davranışı, alicənablığı ilə digər tələbələrdən seçilirdi. Coğrafiya fakültəsini bitirib doğma kəndində müəllim kimi çalışmaq istəyirdi. Bu haqda bizə onun yaxınları söhbət açdılar. Nurlanın hər dəfə söylədiyi - "Universiteti oxuyub bitirdikdən sonra, gəlib öz doğma məktəbimdə uşaqları öyrədəcəyəm" - arzusu cəsur ürəyində yarımçıq qaldı. Bütün mühazirə dəftərləri indi də evdədir, əziz xatirə olaraq qorunub saxlanılır.

Doğma el-obasında müəllimlik etmək arzusu Nurlanın Vətəninə olan sevgisindən irəli gəlirdi. Vətənpərvərliyini könüllü olaraq orduya yazılıb müharibəyə gedərək bir daha sübut etdi. Onun iki övladı var idi, atası da, anası da rəhmətə getmişdilər. Lakin Vətən təəssübü, dövlətinə, xalqına olan məhəbbəti, şücaətli və cəsarətli ruhu Nurlanı çəkib apardı Qarabağa.

Müharibədə Nurlanın ağır yaralanması xəbərini oktyabrın əvvəlində aldıq. Füzuli uğrunda gedən döyüşlərdə Nurlan baş nahiyəsindən güllə yarası almışdı. Uzun müddət komada qaldı və 2021-ci il aprelin 19-da şəhidlik zirvəsinə yüksəldi. Allah Nurlanın simasında bütün şəhidlərimizə rəhmət eləsin! Onlar bizim qürur mənbəyimiz, fəxarət yerimizdir.

**Şəkər Məmmədova**
Coğrafiya fakültəsinin dekanı, dosent

# GƏLƏCƏKDƏ ÖVLADLARI NURLANLA FƏXR EDƏCƏKLƏR

Masallı rayon hərbi komissarlığının qarşısında yola düşməkdə olan avtobusun pəncərəsindən boylanan Nurlan əlindəki açarı qaynatasına uzadaraq utancaq bir təbəssümlə: - "Uşaqlarla şəkil də çəkdirə bilmədim və tez əlini cibinə salıb iş otağımın açarı məndə qalıb - zəhmət olmasa, onu çatdırın" - deyə xahiş etdi. Son xahişi Nurlanın nə qədər məsuliyyətli olduğunu göstərən ölçü ola bilər.

Ətrafımızda elə insanlar var ki, onların həyatı gətirmir ki, gətirmir. Lakin başına gələn acı hadisələr onların iradəsini qıra bilmir. Əksinə, onlar daha nikbin və mübariz olurlar. Nurlan belələrindən idi. Çox çətinliklə böyüyüb, qısa həyatında barmaqla sayılası xoş günləri olub Nurlanın. Atası Fərrux kişi uzun müddət ağır xəstə olub. Atasını itirəndə Nurlan yeniyetmə yaşlarında idi. Onun ölümünün anası ilə özünün həyatına necə zəhər qatacağından xəbərsiz olub. Eynən özünün övladları 5 yaşlı Amin və 3 yaşlı Fərrux kimi...

Zəhmətkeş anası Sədaqət xanım ayaqda ikən bircə balasının evləndiyini görmək istəyirdi. Nurlan evləndikdən sonra məsuliyyəti ikiqat artdı. Ailə qayğıları, anasının xəstəliyinin şiddətlənməsi və vəfat etməsi səbəbindən təhsilinə ara verən Nurlan hərbi xidmətə yollanır. Sərhəd qoşunlarında xidmət edir. İlk gündən özünün intizamı, yüksək icraçılığı, bacarığı ilə fərqlənir. O, hərbi xidməti dövründə nümunəvi əsgər olmuş, xeyli sayda fəxri fərmanla təltif edilmişdir.

2018-ci ilin payızında əsgərlikdən qayıtdıqdan sonra Nurlangilin həyatı yavaş-yavaş axarına düşürdü. Təhsilini davam etdirir. Universitetdə dövlət imtahanından keçdiyi gün onun üçün həyatının ən əlamətdar anı olur.

2020-ci ilin yayında Tovuz hadisələrindən sonra Nurlan bir çox dostları kimi döyüşlərdə iştirak etmək üçün orduya könüllü yazılır. 21 sentyabrda ordu sıralarına cəlb olunur. Keçdiyi qısa döyüş yolunda Nurlan öz vətənsevərliyi, qorxmazlığı, şücaəti ilə fərqlənib. Döyüş dostlarının söylədiyinə görə Nurlanın güclü təbliğatçılıq bacarığı varmış. Ən təhlükəli anda da əsgərləri ruhlandıra bilirmiş. Ağır döyüş əməliyyatlarının birində, 8 oktyabrda Füzulidə baş nahiyəsindən güllə yarası alır, 6 ay 11 gün komada qalır.

Nurlan Əbilov 19 aprel 2021-ci il tarixində şəhadətə yüksəlir və Şərəfə kənd qəbirstanlığında torpağa tapşırılır. Ölümündən sonra dostları onun bir neçə il əvvəl sosial şəbəkələrdə paylaşdığı "xoşbətliklə şəhidlik sinonim sözlərdir. Hər ikisinin "dadını əbədiyyətə qovuşub cənnətdə yaşayanlar bilir" statusunu yayırlar. Sən demə, Nurlan uzun illər imiş ki, özünü şəhid olmağa hazırlayırmış...

Nurlanın cəmi 27 yaşı vardı. İki körpə övladı, sevdiyi və hər an onun yolunu gözləyən ömür-gün yoldaşı vardı...

Qısa, çətin və acılarla dolu həyat hekayəsini bitirmək üçün Nurlanın xanımı Aydanın fikirlərini öyrənmək istəyirəm: "Sözlərlə ifadə edə bilmədim qəlbimdən keçənləri, uca səslə deyə bilmədim yanan qəlbimin fəryadını, gözümdən süzülən yaşlar axdı qəlbimə, amma odu, atəşi söndürə bilmədi. Qulaqlarımda Nurlanımın səsi qaldı: "Bir az da səbr et, Aydan, həyatımız daha gözəl olacaq, mənə edilən bütün yaxşılıqların əvəzini qaytaracağam, bütün çətinliklər bitəcək". Amma bitmədi çətinliklər. Yarımçıq qaldı arzuların həyatımız kimi. Səndən mənə atalarının ölümünü anlamayan, onun məzarına həvəslə gül düzən iki körpə qaldı və bir də böyük bir qürur... İnanıram ki, gələcəkdə övladları da fəxr edəcəklər Nurlanla".

**Nərminə Seyfullayeva**
Coğrafiya fakültəsi
Azərbaycan coğrafiyası və coğrafiyanın
tədrisi metodikası kafedrasının dosenti

# TƏLƏBƏ YOLDAŞIMIZ NURLANIN ƏZİZ XATİRƏSİNƏ

Düşmən qarşısında inamla dayanıb, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmancasına döyüşüb şəhid olan, hamımızın sevimlisi, qrup yoldaşımız, qardaşımız Nurlan Əbilov haqqında xatirələrimizi bölüşmək istədik...

Nurlan bizim yaddaşımızda hər zaman xoş xatirələrlə qalıb. Həmişə hər kəsin vəziyyəti ilə maraqlanan, dərdləşən fədakar biri olub. Nurlanla tanışlığımız 2011-ci ilə təsadüf edir. Biz Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinin 120-ci qrup tələbələriydik. O zamanlar bir-birimizi yaxşı tanımırdıq. Ancaq Nurlan ilk gündən çox mehriban, səmimi və ünsiyyətcil idi və özü bizim hər birimizlə ünsiyyət qurub tanış olmuşdu. Qrupumuzda cəmi iki oğlan var idi. Nurlan qrupdakı qızlara qardaş, dost, sirdaş oldu. Hər çətinliyimizdə bizə arxa-dayaq oldu, hər zaman bizləri qorudu. Bütün tədbirlərdə hər zaman öndə oldu.

2015-ci ildə hamımızın sevimlisi Nurlan ailə həyatı qururdu və biz də onun sevincinə şərik olmaq üçün rayona getdik. Atasının yoxluğunu hiss elətdirməmək üçün toyu daha da şən keçirməyə çalışdıq.

Bir müddət keçdikdən sonra Nurlanın gözəl bir övladı dünyaya gəldi, hamımız təbrik etdik. Daha sonra isə anasının ölüm xəbərini eşitdik və çox məyus olduq.

Nurlanla son görüşümüz 2016-cı ildə baş tutdu. İmtahanlardan sonra bir yerdə yığışdıq, şəkil çəkdirdik və xatirələrimizi bölüşdük.

...Vətən Müharibəsi başlamışdı. Eşitdik ki, Nurlan könüllü olaraq döyüşə qatılıb. Bütün əsgərlərimizlə bərabər onun üçün çoxlu dualar edirdik. Axı onu gözləyən 2 körpə balası var idi... Oktyabr ayında Nurlanın yaralı olduğu xəbərini aldıq. Döyüşlərdə başından snayper gülləsi ilə yaralanmışdı. Vəziyyəti ağır idi, komadaydı... Bu üzücü xəbər bütün qrupumuzu dərindən sarsıtdı. Biz Nurlana kömək olmaq üçün əlimizdən gələni etdik. Hamımızın içində bir ümid var idi ki, tezliklə sağalar. Öz-özümüzə təskinlik verirdik: Nurlan çox güclüdür, həyatında bu qədər çətinliklərə qalib gəlib, bunun da





öhdəsindən gələcək. 6 ay koma vəziyyətində qaldı. Düşünürdük ki, bu qədər zaman dayanıbsa, qalib gələcək... 19 aprel 2021-ci ildə şəhidlik zirvəsinə qovuşdu. Hamının ümidlərini yarıda qoydu. Bu xəbər hamımız üçün ağır oldu. İki körpə balası da özü kimi atasızlığı daddığına görə təbii ki, çox üzülürük. Ancaq o balaların Nurlan kimi ömür boyu fəxr ediləsi və örnək olası ataları olub.

**Nigar Dadaşova,**<br>
**Milyanə Vələdova,**<br>
**Gülsüm Həmzəyeva,**<br>
**İdris Musəvi**<br>
tələbə yoldaşları



## Şəhriyar Vidadi oğlu Həbibi

19 yanvar 1993-cü ildə Lənkəran rayonunda anadan olmuşdur.

2010-2014-cü illərdə Bakı Dövlət Universitetinin Fizika fakültəsində təhsil alıb.

6 noyabr 2020-ci ildə Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda"*** *və* ***"Qubadlının azad olunmasına görə"*** *medalları ilə təltif olunub.*







# MÜƏLLİMLƏRİ ŞƏHRİYARLA FƏXR EDİR

Şəhidlik zirvəsi bütün zirvələrdən ucadır. Şəhidlər ölmür – deyirlər. Doğrudan da, Vətənin azadlığını öz canından daha üstün tutanlar, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəmancasına şəhid olan igidlərimiz unudula bilməzlər. 44 günlük Vətən müharibəsində şücaətli ordumuz tərəfindən 30 ilə yaxın düşmən tapdağı altında qalan müqəddəs Qarabağımız azad olundu. Bu qələbənin əldə olunmasını biz hamımız igid oğullarımıza, qazilərə və şəhidlərimizə borcluyuq.

Vətənin azadlığı uğrunda öz canından keçən qəhrəman övladlarımızdan biri də Şəhriyar Həbibidir. Mən ona dərs demişəm. Olduqca sakit təbiətli, nümunəvi tələbələrdən biri idi. Dərslərimdə daim iştirak edər və maraqla mühazirələri dinləyərdi.

Qəhrəmanımız Aprel döyüşlərində də böyük şücaət göstərmişdir. Vətənin haray səsinə səs verərək işlədiyi müəssisədə iş yoldaşları ilə vidalaşaraq sentyabrın 28-də torpaqlarımızın azad olunması üçün haqq savaşına yollanır. Zəngilan və Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşur və noyabrın 6-da Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olur.

Bütün müəllimləri məzunumuz Şəhriyarla fəxr edir.

Onun əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Məmməd Rəcəbov**
Fizika fakültəsi
Nəzəri fizika kafedrasının müdiri, dosent

# ADI TARİXİMİZƏ QIZIL HƏRFLƏRLƏ YAZILDI

Şəhidlərimiz cismən müqəddəs torpaqlarımıza qarışdılar. Uğrunda canlarını fəda etdikləri torpağımızın bir parçası oldular. Ruhları isə daima Vətənimizin səmalarında dolaşacaqdır - azad, müstəqil Vətənimizin səmalarında.

44 günlük Vətən müharibəsi xalqımızın qüdrətini hər kəsə göstərdi. Dünyanın gözləmədiyi bir qəhrəmanlıq dastanı yazıldı. Bu dastanı yazanlardan biri də Şəhriyar Həbibi oldu.

Təhsil aldığı müddətdə tələbə yoldaşlarından o qədər də fərqlənməzdi, utancaq xasiyyətli idi. Amma bir anda qarşımıza tamamilə tanımadığımız Şəhriyar çıxdı. Düşmənin bağrını yaran, Vətən torpağının azadlığı uğrunda qorxmadan döyüşlərə atılan qəhrəman Şəhriyar. O, 2016-cı ilin Aprel döyüşlərində də iştirak etmişdi. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixində savaş başladıqda Şəhriyar könüllü olaraq döyüşlərə qatılmış, Cəbrayıl, Zəngilan istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşmuşdur. 6 noyabr 2020-ci il tarixində Qubadlı uğrunda döyüşlərdə şəhid olmuşdur. Azərbaycanın bugünkü və gələcək nəsilləri Şəhriyarın və bütün şəhidlərimizin qarşısında daim borclu olacaqlar. Çünki onlar öz gənc həyatlarını bizlərin qürurla yaşamağımız üçün fəda etdilər.

Şəhriyar Həbibinin əziz xatirəsi müəllimlərinin və tələbə yoldaşlarının, eləcə də bütün xalqımızın yaddaşında daim yaşayacaqdır.

**Vüsal Məmmədov**
Fizika fakültəsinin dekan müavini,
fizika üzrə fəlsəfə doktoru





# QƏHRƏMANIMIZ VƏ FƏXRİMİZSƏN...

Zəfər yolunda canını fəda edən igidlərimizdən biridir qrup yoldaşım Həbibi Şəhriyar Vidadi oğlu. Bilirəm ki, onun haqqında yazmaq onu tanıyan hər bir insan üçün çox çətindir. O, gülər üzü, zarafatları, təmiz qəlbi və mərhəməti ilə illər boyu yaddaşlarımızda qalacaq. Bu qısa ömründə dostluğa sadiq, yoldaşlığa vəfalı və yaxınlarına dayaq olmağı bacardı. Mərdliyi, cəsarəti və fədakarlığı ilə həmişə seçildi. Aprel döyüşlərində və Vətən Müharibəsində göstərdiyi şücaət buna sübutdur.

Kaş o günlərə yenidən qayıda bilib, səninlə bağlı daha çox xatirələr toplaya, yanımızda olmağının necə qiymətli olduğunu anlaya bilsəydik...

Sən bizim qəhrəmanımız və fəxrimizsən. Bir Azərbaycanlı kimi şəhidlərin qanı, canı bahasına əldə olunan bu qələbə həyatımızın ən fəxarətli, ən qürurlu anı kimi yaddaşımıza həkk olunub.

Bu Qələbəni bizə sən qazandırmısan, şəhidim!

**Gülbahar Mirzəyeva**
qrup yoldaşı



## Yüksəl İlqar oğlu Əlizadə

5 iyun 1996-cı ildə Quba rayonunda anadan olmuşdur.

2013-2018-ci illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alıb.

9 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə **"Vətən uğrunda"**, **"Döyüşdə fərqlənməyə görə"** və **"Xocavəndin azad olunmasına görə"** medalları ilə təltif olunub.*







# ZİRVƏLƏRƏ YÜKSƏLƏN YÜKSƏL

19 güllə yarası ilə şəhid olan Yüksəl...

2018-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdi və Gəncə şəhər prokurorluğunda böyük mütəxəssis vəzifəsində işləyirdi. Prokuror oğlu idi və gənc yaşında prokurorluğun müstəntiqi idi. Savadlı bir hüquqşünas idi. Önündə gözəl bir gələcək var idi. Ancaq buna baxmayaraq, Yüksəl müharibə başlayan kimi ailəsinə belə xəbər etmədən vəzifəsini, işini, karyerasını bir kənara qoyub könüllü olaraq cəbhəyə, döyüşə getdi. Müharibənin bitməsinə 1 gün qalmış, 8 noyabrda Xocavənd uğrunda gedən döyüşlərdə 12 nəfərlik kəşfiyyatçı əsgər yoldaşı ilə düşmənin içinə sızaraq düşmən postunu ələ keçirmiş, daha sonra mühasirəyə düşmüşdülər. Düşmənə təslim olmayaraq son gülləsi bitənə qədər savaşmış və şəhidlik zirvəsinə ucalmışlar.

Şəhidin bədənində 19 güllə yarası var idi. Ağır yaralı olduğu halda yenə də son damla qanına qədər döyüşmüşdü. Hansı şücaətlə döyüşdüyünü təsəvvür etmək çətin deyil. Əgər bu gün biz qələbə sevinci yaşayırıqsa bu, Yüksəl kimi igid oğulların sayəsindədir. O, bütün Azərbaycanın fəxridir.

Yüksəl canını Vətən torpağına tapşırdı, xatirəsi isə onu sevənlərin və bütün Azərbaycanın qəlbində daima yaşayacaqdır. Onun yoxluğuna şeir yazan dostları dərdiylə dolub daşsalar da, Yüksəllə fəxr edərək uca zirvə olan şəhidlik məqamının ona çox yaraşdığını dilə gətirirlər.

Məqamın yüksək olsun, şəhidim!

**Aybəniz Babayeva**
Tarix fakültəsinin tyutoru

# YÜKSƏL!..

Yüksəl 2020-ci ilin sentyabr ayında Azərbaycan Ordusunda keçirilən hərbi təlimlərə çağrıldı. Vətən müharibəsinin ilk günündən ön cəbhədə savaşa atılaraq Füzuli rayonun Aşağı Veysəlli kəndinin, Ağtəpə, Üçtəpə, Qızılqaya yüksəkliklərinin işğaldan azad olunması uğrunda qəhrəmancasına vuruşmuşdur. Dəfələrlə yaralı, şəhid yoldaşlarını kürəyində uzaq məsafələrdən geri qaytarmış və yenidən savaşa dönmüşdür.

Sonuncu dəfə 8 noyabr tarixində ailəsi ilə telefon vasitəsilə əlaqə saxlayıb Şuşanın işğaldan azad edilməsi münasibəti ilə təbrikləşib, daha sonra ondan heç bir xəbər alınmamışdır. 19 noyabrda şəhid xəbəri gəlmiş, 20 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Qəhrəman qardaşımızın ruhu şad olsun!

Əziz və unudulmaz xatirəsi hər zaman bizimlədir.

**Leyla Məmmədova**
Tarix fakültəsinin əməkdaşı








## Nadir Arzu oğlu Nadirli

23 mart 1992-ci ildə Şəmkir rayonunda anadan olmuşdur.

2009-2013-cü illərdə Bakı Dövlət Universitetinin Biologiya fakültəsində təhsil alıb.

10 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə **"Vətən uğrunda"**, **"Döyüşdə fərqlənməyə görə"** və **"Füzulinin azad olunmasına görə"** medalları ilə təltif olunub.*







# SƏNİ HƏR ZAMAN XATIRLAYACAĞIQ

*Tələbə yoldaşlarının xatirələri*

Nadir çox xeyirxah və mərd insan, dürüst və sadiq dost idi. Düşünürəm ki, onu tanıyan hər bir insan sonradan onu işıqlı bir şəxsiyyət kimi xatırlayır. Bizim Universitetdə də bu, belədir. O, bütün müəllimlərinin və tələbə yoldaşlarının hörmətini və sevgisini qazanıb. Nadirin yoxluğuna inanmaq hələ də çox çətindir, lakin əminəm ki onun ruhu indi şaddır.

Rahat yat, igid şəhidim!

Səni hər zaman xatırlayacağıq və unutdurmayacağıq!

**İqrar Babayev**

* * *

Nadir, sözün əsl mənasında nadir oğullardan idi. Heç nəyə baxmayaraq üzü həmişə gülümsəyirdi, qrup yoldaşlarının çətinlikləri olduğu vaxtlarda onu zarafata çevirərək bizi hər zaman ruhlandırırdı. Çox savadlı və çalışqan idi, qrupda xüsusi intellekti ilə seçilirdi, hamı onu mərd bir adam kimi tanıyırdı.

Düşünürəm ki, gör nə qədər gözəl insan olub ki, ölümündən sonra da üzünü görmədiyi, lakin onunla eyni gündə dünyaya göz açan övladı ilə həyatda bir iz buraxaraq bizə təsəlli verib.

Nadir, rahat uyu, sən daim xoş xatirələrlə yaddaşımızda qalacaqsan!

**Günay Əliyeva**

* * *

Nadirlə neçə illərdi dost idik. Həm qrup yoldaşı, həm iki müxtəlif yerlərdə iş yoldaşı olmuşuq. Ətrafımda insanlar çox olsa da, ən yaxşı və ən pis günlərimdə Nadirin yeri çox hiss olunurdu, çunki pis günlərdə mütləq dayaq

olardı, yaxşı günlərdə isə sənin özün qədər uğuruna sevinən insanlardan olurdu. Nadir hər kəsin ürəyində dərin iz buraxdı.

**Vüsal Qasımov**

* * *

Надир был честным, трудолюбивым и жизнерадостным человеком. Неунывающим и блестящим студентом. Улыбчивым, хорошим другом готовым поддержать в трудную минуту. Надир погиб, возвращая нашему народу самое дорогое, что он потерял. Шахиды подарили нам победу ценой своей жизни. Подарили мирное небо над головой. Теперь он живет в своей дочурке и в нашей памяти. Память бессмертна, а его имя увековечено в сердце народа и в наших сердцах. Склоняем головы перед родителями и семьями всех шахидов, благодарим их за таких достойных, как Надир, сыновей! Светлая им память!

**Фидан Ибрагимова**

* * *

Благодаря Надиру каждый наш день в университете был особенным. Было достаточно одно лишь его присутствие.

На уроке психологии преподаватель показал нам картинку, на которой была изображена рука с глазом в центре и спросил каждого из нас что мы о ней думаем. Тогда никто из нас, за исключением Надира, не нашел смысла в этом изображении. Он сказал: «Все, что мы видим, создано нашими руками». Надир создал будущее, которое мы видим не руками, а ценой собственной жизни.

Надир, мой мир больше никогда не будет прежним. В этом мире перестало биться самое большое сердце - твое сердце.

**Саида Ибрагимли**







## Tərxan Zabit oğlu Qurbanov

29 iyun 1996-cı ildə Şəki rayonunda anadan olmuşdur.

2015-2019-cu illərdə Bakı Dövlət Universitetinin Biologiya fakültəsində təhsil alıb.

6 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda"*** *və* ***"Xocavəndin azad olunmasına görə"*** *medalları ilə təltif olunub.*







# HAMIMIZIN ÜRƏYİNDƏ ONUN YERİ VAR...

*Tələbə yoldaşlarının xatirələri*

Bir başqa idi Tərxan! Hər birimizin dərdinə şərik olan, problemimiz olduğunda bizə dəstək verən, kədərli olduğumuzda isə üzümüzü güldürən biri idi. Eləcə kənardan baxdıqda belə nə qədər səmimi biri olduğunu görə bilərdiniz. Elə buna görədə həm müəllimlərimiz, həm də dostları, ətrafı tərəfindən çox sevilirdi. Onun şəhid olmağı bizi çox kədərləndirsə belə, bir tərəfdən də qürurlandırır.

**Məryəm Əliyeva**

* * *

Тархан был единственным мальчиком в нашей группе. Нас было 8 девушек и Тархан. Все мы считали его братом. Любил беседовать абсолютно на любые темы. Давал хорошие советы и помогал нам. Всегда улыбался, был очень жизнерадостным. Он хотел стать врачом и лечить людей, считал это своей миссией и выполнил эту миссию на войне, помогая многим раненным солдатам. Мне всё ещё не верится, что его нет среди нас.

**Лейла Бекагаева**

* * *

Вспоминая Тархана на лице сразу появляется улыбка. Он был дружелюбным, добрым, отзывчивым человеком. Все мы помним его шутки и рассказы. У него были большие планы на будущее и очень жаль, что его жизнь оборвалась именно так. Я хочу попросить Аллаха о терпении

для его семьи. Он навсегда останется в наших сердцах как искренний и светлый человек. Пусть Аллах упокоит его душу.

**Севиндж Гулиева**

* * *

Лично для меня Тархан всегда был и останется добрым и отзывчивым другом, он всегда приходил на помощь, стоило только его об этом попросить. С ним всегда можно было поболтать и посмеяться от души.

**Нигяр Джафаргулиева**

* * *

Тархан был очень добрым и жизнерадостным человеком. Он был очень трудолюбив, учился и в то же время работал.

**Сабина Садыгова**

* * *

Çox səmimi, gülərüz, mehriban insan idi Tərxan. Hamımız onu qardaşımız kimi çox sevirdik. Müəllimləri də onun xətrini çox istəyirdi. Yardımsevər, yumşaq ürəkli idi. Qrupumuzda kimsə kədərli olanda tez gəlib zarafatlarıyla, sözləriylə güldürürdü.

İnanıram ki, onu tanıyanların qəlbində xüsusi bir yeri var Tərxanın...

**Anella Karibova**







# Fikrət Akif oğlu Zeynallı

23 fevral 1995-ci ildə Tovuz rayonunda andan olmuşdur.

2012-2016-cı illərdə Bakı Dövlət Universitetinin Fizika fakültəsində təhsil alıb.

9 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Döyüşdə fərqlənməyə görə"****,* ***"Vətən uğrunda"*** *və* ***"Xocavəndin azad olunmasına görə"*** *medalları ilə təltif olunub.*







# FİKRƏTİN İÇƏRİSİNDƏ VULKANLAR QAYNAYIRMIŞ

Azərbaycanın bütün vətəndaşları kimi BDU-nun Fizika fakültəsinin tələbə və məzunları da torpaqlarımızın işğalı ilə heç zaman barışmadılar. Hələ Birinci Qarabağ Müharibəsində Fizika fakültəsinin tələbə və məzunları işğalçı qüvvələrə qarşı fədakarlıqla savaşdılar, şəhidlərimiz, Milli Qəhrəman adına layiq görülənlərimiz oldu.

30 il ərzində bizi həsrətlə gözləyən işğal altındakı torpaqlarımızın azadlığı insanlarımızın əsas arzusu oldu. Və bu qələbəni bizə yaşadan cəngavər bir nəsil yetişdi. Fizika fakültəsinin tələbəsi Fikrət Zeynallı da bu cəngavərlərdən biri oldu. Təhsil aldığı illərdə sakit təbiətli idi Fikrət. Amma sən demə, bizim zahirən sakit bildiyimiz Fikrətin içərisində vulkanlar püskürürmüş. Və həmin vulkanlar düşmənin üzərinə od püskürdü. Fikrət Zeynallı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsi zamanı ilk gündən savaşa qatılıb. Şuşa və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşan Fikrət noyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub. Onu hər zaman sevgi və ehtiramla anırıq. Fikrət Zeynallının adı Fizika fakültəsinin tarixində, xatirəsi isə müəllim və tələbələrin yaddaşında daima yaşayacaqdır.

**Məhəmməd Məhərrəmov**
Fizika fakültəsinin dekan müavini, dosent

# ŞƏHİD FİKRƏT ZEYNALLI HAQQINDA

*Tələbə yoldaşlarının xatirələri*

Dəyərli qardaşım Fikrət, sənin haqqında bu sözləri yazmaq çox ağırdır. Qrupumuzun sakit, mehriban üzlü igidi, Vətən üçün mərdliklə döyüşüb şəhid oldun. Sən həmişə qəlbimizdəsən.

Ruhun şad olsun!

**Səadət Namazova**

* * *

Mənim əziz və dəyərli şəhid qrup yoldaşım, qardaşım, Fikrət! Vətənin dar günündə sinəsini sipər edən igid, cəngavər qardaşım, Rəbbim səni ən uca, ən ali zirvə ilə mükafatlandırdı. Bu zirvə şəhidlik zirvəsidir. Sən bizim rahat gecələrimizin keşikçilərindənsən. Azərbaycan sənin kimi igidləri ilə fəxr edir. Mən səninlə fəxr edirəm, hər zaman da fəxr edəcəyəm.

**Tükəz İsmayılzadə**

* * *

Fikrət...

Əziz qrup yoldaşımız, qardaşımız...

Sən ən ali zirvəyə ucaldın. Şəhidlik zirvəsinə. Biz sənin şad xəbərini gözləyərkən qara xəbərin gəldi. Xarakterini, cəsurluğunu, mərdliyini, ürəyinin böyüklüyünü göstərdin. İndi sözlər kifayətsizdi...

Rahat uyu, əziz qardaşım.

Sən həmişə qəlbimizdə yaşayacaqsan.

**Şəlalə Davudova**





* * *

Fikrət Zeynallı...

Adını hər dəfə çəkəndə, hər dəfə tələbəlik illərini xatırlayanda qəlbimiz sızıldayır. Qəlbinin gözəlliyi, qibtə olunası insanlığıyla yadımda qalan qəhrəman şəhidim. Biz səninlə çox imtahan verdik. Amma ən böyük imtahandan sən keçdin. Səninlə qürur duyuruq. Sən hər zaman qəlbimizdə yaşayacaqsan. Hər şey yaxşı olacaq - deyirdin. Hər şey yaxşıdır, amma sən yoxsan, əziz qardaşım.

Uğrunda canını verdiyin torpaqlar bizlərə əmanət...

**Fidan Məmmədli**

* * *

Bizim əziz qrup yoldaşımız - gözəl insan, mehriban, səmimi, heç kimin xətrinə dəyməyən qardaşımız. Hər gün gözləyirdik səni, sağ-salamat qayıdacağını arzulayırdıq. Nə qədər dua etdik sağ qayıtmağın üçün, amma şəhidlik zirvəsinə ucalmaqmış qismətin.

Allah sənə rəhmət etsin, nur üzlü şəhidimiz.

Səninlə bütün Azərbaycan fəxr edir.

Sən fəxr ediləsi oğulsan, Fikrət.

**Gülşən Quliyeva**

* * *

4 illik tələbə yoldaşım, ömürlük qəlbimdə yaşayacaq dostum, həmişəlik sakit, təmiz ürəkli bir insan kimi yaddaşlarda qaldın...

Allah sənə rəhmət eləsin!!!

**Nicat Alışov**

* * *

Fikrətlə təkcə tələbə yoldaşı yox, həm də otaq yoldaşı olmuşuq. Ona ən yaxın olan biri kimi deyə bilərəm ki, haqqında dastanlar yazılacaq bir insandır Fikrət. Dəqiq elmləri, xüsusilə də riyaziyyatı ən yaxşı bilənlərdən biri idi Fikrət. Dostluğu, mərdliyi, insanlığı əvəzedilməz idi. Son qəpiyini də dost yolunda xərcləyərdi - heç düşünmədən.

**İlkin Yusifov**

* * *

Qardaşım Fikrət, səni hər dəfə xatıradıqca birlikdə keçirdiyimiz gözəl günlər, deyib-güldüyümüz şən söhbətlər yadıma düşür. İndi bunlarla yanaşı səni tanıdığım üçün qürur duyuram, səninlə fəxr edirəm. Çünki sən bizim həyatımızda unudulmaz iz buraxıb getdin. Deyirlər ki, yaxşı insanlar tez gedir bu dünyadan. Sən öz ömür yolunla bunu təsdiqlədin.

Həmişə dediyin kimi: Vətən sağ olsun!

**Elşən Mustafayev**

* * *

Fikrət...

Mənə sənin haqqında nəsə yazmaq, demək çox çətindir. Heç kimə qarışmayan, sakit təbiətli, eyni zamanda da zarafatcıl qrup yoldaşımız. Sən çox zəhmətkeş insan idin, həm oxuyur, həm işləyirdin.

Aramızda olmasan da hər zaman qəlbimizdə yaşayacaqsan. Tələbə yoldaşlarının olaraq səninlə qürur duyuruq, sənin kimi qəhrəman qrup yoldaşımız olduğu üçün fəxr edirik!

**Ülviyyə Heydərova**







## Hüseyn Həsən oğlu Quliyev

4 mart 1999-cu ildə Gəncə şəhərində anadan olmuşdur.

2016-2020-ci illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alıb.

28 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda"****,* ***"Kəlbəcərin azad olunmasına görə"*** *və* ***"Hərbi xidmətlərə görə"*** *medalları ilə təltif olunub.*







# QARTAL TƏK ZİRVƏDƏ

Şəhidlik Uca Allahın dərgahında Peyğəmbərlik məqamından sonra şərəfli bir addır ki, bu adı vətənsevər insanlar qazanırlar. Rəbbimiz müqəddəs "Qurani-Kərim"in ayələri ilə bizlərə bunu xəbər verir:

"Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında ) diridirlər, lakin siz bunu dərk etmirsiniz" ("Bəqərə" surəsi, 154).

Əcdadlarımız əsrlərdən bəri yurdumuza göz dikən düşmənin gözlərini ovmuş, intiqamımızı almış, bu şücaəti bizlərə ötürmüşlər. Çağdaş dünyada ən müasir müharibə kimi təsdiqlənmiş, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə zəfərlə başa çatmış 44 günlük Vətən müharibəmiz bu fikrimizə əyani sübutdur. Bu qələbə bizim igid oğullarımızın cəmi 44 gün ərzində mübarək al qanları ilə tarixə vurduqları möhürdür.

Mənim üçün çox böyük şərəfdir ki, tarix yazan igid oğula dərs demək nəsibim olmuşdur. Bakı Dövlət Universitetində işlədiyim illər ərzində Quliyev Hüseyn mənim ən yadda qalan tələbəm olmuşdur. Hüseyn öz tərbiyəsi və əxlaqı ilə seçilirdi. Şəhidlik zirvəsinə ucalmış Hüseynin üzündə həmişə qəribə bir nur, həya olardı. Hüseyn şəhid olduqdan sonra anladım ki, bu heç də adi deyil, İlahi nur imiş, onun Cənnət gəncləri ordusunda olmasına bir işarə imiş. Hüseyn həmişə yüksək mədəniyyəti, davranışı, səliqəsi, məsuliyyəti və utancaqlığı ilə fərqlənir, ailəsi haqqında yüksək fikir yaradırdı. Təbii ki, belə yüksək keyfiyyətlərə malik olan bir insan bütün gənclərimiz üçün nümunədir. Qısa ömrü ərzində o, böyük bir yol keçmiş və tarix yazmışdır.

Deyirlər, Cənnət anaların ayağı altındadır. Əminəm ki, Cənnət Hüseyn kimi, igid oğulları böyüdən Gülxar Anamız kimi Analarımızın ayağı altındadır!!!

Sızlarsa da könüllər
Şəhidlərin yasından,
Qoşar adım getməli
Onların arxasından. *(Nihal Atsız).*

**Günel Əliyeva-Məmmədova**
Tarix fakültəsi
Asiya və Afrika ölkələri tarixi kafedrasının
müəllimi, tarix üzrə fəlsəfə doktoru





# TARİX YAZAN HÜSEYN

Hüseynlə tanışlığımız 2016-cı ilin 15 sentyabrında Bakı Dövlət Universitetində başladı. İlk günlərdən Hüseyn bütün qrup yoldaşlarının sevgisini qazanmağı bacarmışdı. Birlikdə keçirdiyimiz tələbəlik illəri boyunca Hüseyn ən çətin anlarımızda diqqət göstərər, hər zaman bizi qoruyardı. Hüseyn nə qədər ciddi idisə, bir o qədər də şən və zarafatcıl idi. Birlikdə olduğumuz məkanlarda, tədbirlərdə deyib-gülər, əylənməyi çox sevərdi. Həyatsevər idi Hüseyn... Nə qədər çətinliyi, kədərli günləri olsa belə bizə onları hiss etdirməzdi. Həyatı gözəl xatirələrlə yaşamağı çox sevərdi.

Heç vaxt yadımdan çıxmaz, birinci kursun sonlarına doğru qrupla rayonların birinə gəzintiyə getmişdik. Hüseyn orda da bizimlə maraqlanar, nəyəsə ehtiyacımız varmı deyə soruşardı. Pandemiya şəraiti ilə əlaqədar olaraq sonuncu il görüşməsək də Hüseyn vaxt tapdıqca bizimlə əlaqə saxlayardı. Universiteti bitirdikdən sonra magistratura imtahanına hazırlaşdığını söyləmişdi. Biz onun potensialına bələd idik və inanırdıq ki, o yaxşı nəticə əldə edəcək. Çünki Hüseyn hər zaman dərslərdə fəal iştirak edər, yorulmadan çalışar və istədiyi nəticəni əldə edərdi. Buna görə o, müəllimlərin sevimlisinə çevrilmişdi. İmtahan nəticəsinin müsbət olduğuna baxmayaraq o, Vətənini, torpağını qorumağı seçdi. Çox istəyirdi hərbi xidmətə yollansın, Vətəninə, millətinə layiqincə xidmət etsin. Çağırış vərəqəsinin gəlməyini səbirsizliklə gözləyirdi. Həyatında hər şeyin tez bir zamanda baş verməyini, hərbi xidmətdən qayıdandan sonra yeni həyatına başlamağı arzu edirdi. Mülki həyatdan ayrılmadan öncə telefonla əlaqə saxladıq, bizimlə sevincini bölüşdü. Bir ilin tez gəlib keçəcəyini, gələrkən əsgərlik xatirələrindən danışacağını söyləmişdi bizə...

Hüseyn yaddaşlarda ən xoş xatirələrlə qalmağı bacardı. Onun qrup yoldaşı olduğum üçün qürur duymaqla yanaşı, eyni zamanda kədərliyəm. Qürurluyam ona görə ki, fəxr edirəm Hüseyn kimi igid, qorxmaz, qəhrəman bir insanla 4 il eyni qrupda oxudum. Biz Tarix fakültəsində təhsil alırdıq, amma bilmirdik ki, bir gün Hüseyn həm də tarix yazacaq. Hüseyn bunun-

la hər kəsdən seçilməyi bacardı. Çox təəssüflər olsun ki, o, indi aramızda yoxdur, lakin buna baxmayaraq o, hamımızın ürəyində əbədi yaşayacaq. Hüseynin əziz xatirəsini fəxr və qürur hissi ilə yaşadacağıq. O, tək bizim üçün yox, bütöv Azərbaycan üçün unudulmaz bir qəhrəmandır.

**Nigar Nəsirli**
tələbə yoldaşı







## Tural Yadulla oğlu Eyyubov

2 iyul 1992-ci illərdə Kürdəmir rayonunda anadan olmuşdur.

2009-2013-cü illərdə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsində təhsil alıb.

25 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə"*** *və* ***"Şuşanın azad olunmasına görə"*** *medalları ilə təltif olunub.*







# NUR İÇİNDƏ UYU, BİZİM İGİD OĞLUMUZ!

İllərdir düşmən tapdağında inləyən, öz doğma sakinləri üçün darıxan, dədə-baba torpaqlarımıza yenidən qovuşmağımız üçün şəhidlərin ruhu qarşısında ehtiramla baş əyirik!

BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunu, Tural Yadulla oğlu Eyyubov Vətən müharibəsində könüllü olaraq iştirak edib, müqəddəs şəhidlik zirvəsinə ucalıb. Tural tələbələr arasında həmişə Vətənə olan sonsuz sevgisi, mərdliyi, mübarizliyi ilə seçilirdi. Məhz bu xüsusiyyətləri onun könüllü olaraq müharibədə iştirakına səbəb oldu.

Ruhun şad olsun, əziz Tural! Sizin qanınız yerdə qalmadı! İşğal altında olan torpaqlarımız artıq öz sahiblərinə qaytarılıb. Və mən illərdir həsrətində olduğum, dədə-baba yurduma, Laçınıma sənin kimi igidlərin mərdliyi sayəsində qovuşdum. Nur içində uyu, bizim igid oğlumuz!

**Məhəmməd Mehdiyev**
Tətbiqi riyaziyyat və kibernetika
fakültəsinin dekanı, akademik

**Şamo Cəbrayılov**
Tətbiqi riyaziyyat və kibernetika
fakültəsinin dekan müavini, dosent

# İGİD TURALI ÖZÜNDƏ YAŞADAN KÖRPƏ MƏRYƏM

Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunu, hər kəsin sevgisini qazanmış, qəlbi Vətən sevgisiylə döyünən, könüllü olaraq ordu sıralarına qoşulub düşmənə qarşı şücaətlə döyüşüb şəhidlik zirvəsinə yüksələn leytenant Tural Eyyubov!

Hər kəsin bir tale yazısı, ömür payı var. İstəsək də, istəməsək də bu yazını heç cür dəyişmək olmur. Tural gözəl bir ailədə dünyaya göz açıb. Gəlişi ilə ailəsinə sevinc bəxş edib və həmişə valideynləri onunla fəxr ediblər.

İllər keçdi, valideynlərinə hamının arzusu olan övlad toyu nəsib oldu... Amma amansız düşmən seçilən, mərd, igid, vətənpərvər oğullarımızın həyatına son qoydu.

Təəssüf ki, Turala sağlığında ata olmaq nəsib olmadı. 2021-ci ilin iyun ayının 9-da şəhidimizin qızı Məryəm balamız dünyaya göz açdı. Çox əfsuslar ki, ata nəvazişini, sevgisini, isti nəfəsini duymaq nəsib olmadı körpə mələyimizə. Doğulmazdan əvvəl atasızlıq yazıldı taleyinə... Amma mən əminəm ki, Turalın cənnətdə olan ruhu həmişə körpə mələyini qoruyacaq! Məryəm balaya bütün Azərbaycan duaçıdır. O, şəhidimizin bizə yeganə yadigarıdır.

Xoşbəxt, sağlam yaşa Məryəm bala! Sən həqiqətən Allahın sevimli bəndəsisən. Allah səni qorusun! Həmişə ailənin fəxri, atanın davamçısı, nənənin, babanın, ananın, bir sözlə bütün yaxınlarının qürür mənbəyi ol! İgid Turalı özündə yaşadan körpə bala, qədəmlərin mübarək! Dünyamıza xoş gəldin! Gəlişinlə ailənə sevinc gətirdin. İndi onlar Turalın iyini səndən alıb, həyatda yaşamağa güc tapırlar, gözəl qızım! Xoş arzular diləyilə, Allah bəxtini taxtlı-taclı, taleyini gözəl yazsın, körpə qızımız! Allah atana rəhmət etsin və ruhu həmişə səni qorusun! Bütün şəhidlərin ruhu qarşısında baş əyirəm və ruhunuz şad olsun deyirəm! Qazi və hərbçilərimizə sağlam ömür arzulayıram!

**Mina Kərimova**
Tətbiqi riyaziyyat və kibernetika
fakültəsinin əməkdaşı





# HƏR ZAMAN ÜRƏKLƏRDƏ YAŞAYACAQSAN!

Tələbələrlə sıx ünsiyyətdə olduğum üçün onların xarakterlərinə yaxşı bələdəm. Tural haqqında xatirələrimi bölüşmək, çox kədərli və ağırdır! Tural sözün əsl mənasında igid, mübariz, mərd, qorxmaz bir gənc idi. Onu daim Vətən ağrısı narahat edirdi. Həmişə fikirli və narahat idi. O, hərbi xidmətini bitirməyinə baxmayaraq və səhhətindəki ciddi problemini heçə sayaraq Vətən müharibəsinə könüllü yollanıb düşməndən qisasımızı aldı və şəhidlik zirvəsinə yüksəldi! Allah sənə rəhmət etsin, igid oğul! Ruhun qarşısında baş əyirəm! Şükür, qisasınız alındı!

Tural leytenant idi. Düşməndən qisas almaq üçün könüllü cəbhəyə yollandı. Qəhrəmancasına vuruşaraq arzuladığı şəhidlik zirvəsinə yüksəldi. Şəhidlik zirvəsinə ucalandan sonra Turalın övladı dünyaya gəldi. Ata-bala bir-birini əbədi olaraq görməyəcəklər... Bu dünyada şərəfli, mərd, ömür sürən, nakam, övladını görməyən, ailəsinə, sevdiklərinə sağalmaz dərd qoyub gedən Turalımız! Sən hər zaman sevənlərinin ürəyində yaşayacaqsan! Ruhun qarşısında baş əyirəm! Səni dünyaya gətirən, böyüdən valideynlərinin qarşısında baş əyib, əllərindən öpürəm! Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Səbinə Abbasova**
Tətbiqi riyaziyyat və kibernetika
fakültəsinin tyutoru



## Kənan Nifdalı oğlu Məmmədov

22 oktyabr 1993-cü ildə Ucar rayonunda anadan olmuşdur.

2013-2017-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb.

30 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda"*, *"Kəlbəcərin azad olunmasına görə"*** *və* ***"İgidliyə görə"*** *medalları ilə təltif olunub.*







# GENERAL RUHLU LEYTENANT...

Deyirlər ki, tarixi necə yazsan, elə də qəbul edərlər... Xatirələr də elədir. Bu xatirələr istər xoş, istər acı olsun, hər zaman kədərlidir... Nə qədər pozitiv olsaq da, ötən günlər hamıda həmin an, həmin zaman bir nisgil oyadır...

Kənana BDU-nun Filologiya fakültəsinin rus bölməsi, dil və ədəbiyyat müəllimliyi (rus dili üzrə) ixtisasına daxil olandan 4 illik universitet həyatı boyunca kuratorluq edən, tədrislə bağlı bütün sənədləşmə proseslərində iştirak edən, onu yönləndirən mən olmuşam. Bilirsiniz, Kənan haqqında danışmaq mənim üçün çox ağırdır... Ehh Kənan, Kənan... Dilindən Vətən, hərb, Qarabağ, şəhidlik zirvəsi sözüləri düşməyən Kənanımız... Unutmayacağım tələbəm, fikirlərini çəkinmədən açıq deyə bilən, bəlkə də, ömrümün sonuna qədər dostluq edəcəyim tələbələrimdən biri... Bəli, məhz edəcəyim biri.. Çünki o, mənim üçün ölməyib və hər zaman da ürəyim döyündükcə, beynimdə yaşadacağım ən əziz tələbəm olaraq qalacaq...

2 oktyabr 2020-ci il... Kənanın şəhidlik zirvəsinə ucaldığı gün... Metro ilə işə gəlirdim. Bir də baxdım, messengerdən tələbə yoldaşı Kamran yazır. Nömrəsini aldım ki, nə baş verdiyini anlayım. Telefonda aldığım xəbər hələ də uğultu olaraq qulağımda səslənir... "Natəvan xanım, heç özüm də bilmirəm necə deyim. Kənan şəhid oldu. Başımız sağ olsun." Bütün bədənim əsirdi. Kamrana məlumatı dəqiqləşdirib, mənə xəbər verməyini dedim. O isə mərasim üçün mağarın belə qurulduğunu desə də, yenə də içimdən Kənan ölə bilməz, o qoçaqdır, bacarıqlıdır, yarımçıq qalan işləri var. Axı o, mənə general olacağına söz vermişdi...

Artıq məzun olmuşdu. Buna baxmayaraq, hər zaman məni istər sosial şəbəkədən axtarar, yazar, istərsə də Universitetə yanıma gələrdi. Söz vaxtına çəkər. Təxminən yaz aylarının sonu idi. Hər zamanki kimi işdə idim. Bir də baxdım, kimsə qapıdan boylanır. Otağımıza da hər zaman belə daxil olardı. "Natəvan xanım, olar gəlim içəri?" İşlərim o qədər çox idi ki. Ona içəri girib oturub məni gözləməyini xahiş etdim. Həmin gün maraqlı söhbətimiz oldu. Nə edir, nə iş görür, indi hardadır... Onda bildim ki, sən demə, arzusu üzrə hərbiyə könüllü işləməyə gedib. Hətta XTQ-nin üzvü imiş. Xüsusi təlimlərdən

qayıtmışdı. Sual verəndə ki, sənin bitirdiyin ixtisasla hərbinin nə əlaqəsi?! Cavabı belə oldu: "Necə yəni nə əlaqəsi? Mənim məqsədim general olmaqdır. Generallar da yaxşı nitq söyləməyi bacarmalıdırlar. Bunun üçün oxuduğum ixtisasın mənə çox köməyi dəyə bilər. Bir də ki, ay Natəvan xanım, bir gün mən də şəhid olacam. Siz də fəxr edib deyəcəksiniz ki, Kənan mənim tələbəm olub". Çox əsəbiləşdim ona. Dedim: "mənim oğlum olacaq, sən də onun generalı".

...Şəhid xəbərini sosial şəbəkədən paylaşdım. Paylaşdım ki, sənin qəhrəmanlığını hamı bilsin, səninlə fəxr eləsin: "Qeyrətli, mərd, sadiq Kənanımız şəhid olub. İki saatdır gözləyirəm ki, xəbər yalan olsun... O sözlər qulağımda cingildəyir. Və bunları ağlaya-ağlaya yazıram. Şəhadətin mübarək, Kənan! Allah sənə və Vətənimizin bütövlüyü uğrunda cavan ömründən keçən bütün şəhid oğullarımıza rəhmət eləsin... VƏTƏN SAĞ OLSUN!!! Sənin haqqında belə paylaşmaq mənə o qədər ağırdır ki..."

Deyirlər ki, Cənnət anaların ayağının altında, şəhidin gülən üzündədir. Səni böyüdüb başa çatdıran ananın qarşısında baş əyirik!

Ruhun şad olsun, ay mənim general ruhlu leytenant tələbəm!

**Natəvan Əliyeva**
Filologiya fakültəsinin tyutoru





# SAYƏNİZDƏ BAYRAĞIMIZ QARABAĞDA DALĞALANIR

4 il bir parta arxasında oturduğum qrup yoldaşım Kənan Məmmədovla bağlı xatirələrim sonsuzdur. Kənan deyib-gülməyi, tələbə yoldaşları ilə vaxt keçirməyi çox sevirdi. Biz Universiteti bitirəndən sonra, hər zaman bizə ən çox dediyi söz - "Kaş ki, tələbəlik illərimizə qayıdıb, o anları birgə yenidən yaşayardıq" - hər zaman bizi kövrəldirdi. Kənanın necə mərd, igid, Vətənini hər bir varlıqdan çox sevən oğul olduğunu 4 il ərzində öyrəndik. 4 il ərzində biz bir ailə olduq. Onun ürəyində bir böyük arzusu vardı: Hərbçi olmaq. Həmin ərəfələrdə hərbi xidmət haqqında mənimlə çox məsləhətləşib söhbətləşirdi. "Mən də sənin kimi leytenant olmaq istəyirəm, Fəridə"- müraciətinə cavabım: "Əlbəttə ki, olacaqsan, mən sənə inanıram" - olmuşdur. 2017-ci ildə Universiteti əla qiymətlərlə bitirən kimi arzusunun qanadlarında həyata şığıdı. Həmin il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə daxil oldu. Təlim Mərkəzini birinciliklə bitirən Kənan leytenant rütbəsinə yüksəldi.

Murovdağa ilk ayaq basanlardan olan Kənan ən öndə gedərək Murovdağı düşmənlərdən qəhrəmancasına azad edənlərdən oldu. Qrup yoldaşım Kamran ilə yazışmasında da ölümü bahasına Vətəni azad edəcəyini deyirdi: "Hə mən öləcəm düzdür, amma olacaq. Mən o yolda öləcəm, başqa ölümüm yoxdur mənim". Vətəninin, qardaşlarının qisasını almağı özündən, arzularından, üstün tutdu Kənan. 2020-ci ilin oktyabrın 2-də şəhidlik zirvəsinə yüksəldi. Elə arzuladığı kimi də tarix yazdı şəhadəti ilə qardaşım Kənan! Sənin kimi neçə-neçə qəhrəman şəhidlərimizin qanı bahasına bu gün bayrağımız Qarabağda dalğalanır.

**Fəridə Abıyeva**
tələbə yoldaşı

# MƏNİM BÖYÜK QARDAŞIM

Mənim böyük qardaşım, şəhid, XTQ leytenantı Kənanla olan xatirələrimizi yazsam, bir kitab yazmış olaram, lakin bura başımıza gələnlərin, birlikdə yaşadıqlarımızın bir qismini yazacam. Öncə onu deyim ki, Kənan çox cəsur, qorxmaz, ürəyində həmişə qisas hissi ilə alışıb-yanan aslanlarımızdan idi.

Birinci kursa başlayandan günü-gündən daha da yaxın olurduq, əsl qardaş kimi idik, hətta qardaşdan daha artıq. Kənanla məni təkcə Universitet həyatı bağlamırdı, artıq ailəvi dostlara çevrilmişdik. Deməkolar ki, hər tətildə Kənangilin kəndinə istirahət etməyə gedirdik. Kənanın üçtəkərli motosikleti var idi. Onu güclə birtəhər işə salıb, Ucarı o baş, bu baş gəzirdik.

4 illik tələbəlik həyatımız ərzində maddi sıxıntılarımız olurdu. Bu barədə narazılıq edəndə Kənan deyirdi ki, "Kamran oxu! Oxu ki, biz də yaxşı yaşayaq!" Bəli, oxuduqda azdan-çoxdan əlimiz çörəyə çatdı.

....Yadıma gəlir, Aprel döyüşləri vaxtı öz aramızda cəbhəyə getməklə bağlı söhbətlər edirdik. Aprelin 5-də Kənanın qardaşının işlədiyi hərbi hissəyə mənimlə birgə getmişdik və Kənan orada dəfələrcə ön xəttə getmək istədiyini bildirirdi. Kənanın içindəki qisas hissi onun hərbiyə olan marağını günü-gündən artırırdı. Səbirsizliklə universitetin bitməsini gözləyirdi ki, zabitlik kursuna başlasın və o şərəfli formanı əyninə geyinə bilsin. Kənan öz bilik və savadıyla müvəffəqiyyətlə universiteti bitirdikdən sonra nəhayət ki, arzusunu reallaşdırmağa başladı və ehtiyat zabit kursunda təlimlərə yazıldı. Əlbəttə ki, Kənan bu kursu da böyük həvəslə əla qiymətlərlə başa vurdu və iki səkkiz guşəli ulduzlu rütbəsi çiynində daşımağa başladı. Rütbəni alandan sonra Kənan ön cəbhəyə yollandı, onu Beyləqanın düşmənlə yaxın postlarının birinə tağım komandiri təyin etdilər. Beyləqandakı xidmət dövründə Kənan tabeliyindəki şəxsi heyət tərəfindən çox böyük hörmət qazanmışdı. Onlara təkcə komandir yox, həm də böyük qardaş idi. Kənan artıq Beyləqandakı xidməti zamanı düşmənin gözünə dik baxmağı öyrənmişdi və necə qorxusuz, mərd olduğunu sübüt etmişdi. Kənanın böyük qardaşı Anar da hərbçi idi. O XTQ-də gizir kimi xidmət edirdi. Qardaşının bu qurumda xidmət etməsi Kənan da XTQ kursuna gedib qardaşı ilə birlikdə çiyin-çiyinə xidmət etməyə





maraq yaratmışdı. Kənan növbəti arzusunu da reallaşdırmağı bacardı. O, 6 aylıq çox çətin olan və dözüm tələb edən Xüsusi Təyinatlıların kursunu keçdi. Beləliklə, qəhrəmanımız öz doğma qardaşının yanında xidmətə başladı.

2020-ci ilin yayında Tovuzda baş verən döyüşlərdə generalımız Polad Həşimovun şəhid olması Kənana çox pis təsir etmişdi. Həmişə deyirdi ki, "Onlar kimdilər axı bizim generalı öldürürlər? Generalımızın qanı yerdə qalmamalıdır!" Ruhun şad olsun, mənim gözəl qardaşım. Generalımızın da, bütün digər şəhidlərimizin də qisasını aldın öz şəhid yoldaşlarınla, qazilərimizlə birgə.

**Kamran Qaraşov**
tələbə yoldaşı



## Seyfəddin Məhiyyəddin oğlu Dadaşov

8 mart 1999-cu ildə Beyləqan rayonunda anadan olmuşdur.

2016-2020-ci illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində təhsil alıb.

31 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə* ***"Vətən uğrunda"***, ***"Suqovuşanın azad edilməsinə görə"*** *və* ***"Cəsur döyüşçü"*** *medalları ilə təltif olunub.*







# YAXIN DOSTLARINDAN MƏKTUB

Qardaşımız, can dostumuz, əziz Seyfəddin.

Sən indi ən müqəddəs yerdən bizi izləyir və yazdıqlarımızı, sənsiz keçirdiyimiz hissləri çox yaxşı bilirsən. Hər birimizin qəlbində bir başqa yer tutmuşdun. Biz sənə çox sağol deyirik ki, bizə dostluğun, qardaşlığın nə olduğunu öyrətdin. 4 ildə bizə 40 ilə sığacaq qədər xatirələr yaşatdığın üçün, qəlbimizdə silinməyəcək izlər qoyduğun üçün çox sağ ol, əziz qardaşımız.

Sən həmişə xatirəmizdə yaşayacaqsan. Hər nəfəs aldıqca birini sənin üçün alacağıq. Arzu etdiyin nə varsa, əlimizdən gəldiyi qədər o arzuları gerçəkləşdirməyə çalışacağıq. Sən ən yüksək, ən ali yerdəsən, əziz qardaşımız.

Ruhun şad olsun, haqqını bizə halal et...

# TƏLƏBƏLİK İLLƏRİMİN UNUDULMAZ DOSTU

Seyfəddin 2016-cı ildən mənim qrup yoldaşım olub. Tələbəlik illərimiz bir yerdə keçdi. Seyfəddin mənim yaddaşımda təmiz qəlbi, gülər üzü və ən əsası malik olduğu yüksək tərbiyəsi ilə qaldı. Qrup nümayəndəsi kimi onunla digər tələbə yoldaşlarımdan daha çox ünsiyyətdə olurdum. Seyfəddin yaranmış ən çətin vəziyyətlərdə, imtahan yükünün ağır olduğu zamanlarda böyük təmkin nümayiş etdirirdi. Seyfəddinin çox güclü yaddaşı və məntiqi düşünmə qabiliyyəti var idi. Onun imtahanlara çox az müddətdə hazırlaşıb yaxşı ballar toplamağı sadəcə alqışalayiq idi. Seyfəddin hər zaman bizləri öz ata-baba yurduna, Beyləqan rayonunun Mayak kəndinə dəvət edərdi. Çox əfsus ki, tələbəlik illərində gedə bilmədik. Məzarına hər baş çəkdiyimdə ötən günlər yadıma düşür. Mərd, şücaətli, tərbiyəli dostumun, qrup yoldaşımın olması məndə fəxr hissi oyadır.

Azərbaycan 44 günlük Vətən müharibəsində məhz Seyfəddin kimi qəhrəman əsgərlərimizin, şəhidlərimizin mərdliyi hesabına qalib gəldi. Onun haqqında sözlərim çoxdur. Fikirlərimi bu sözlərlə tamamlamaq istəyirəm: "Torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda isə Vətən olur". Allah Vətənimizi qorusun və bütün şəhidlərimizə rəhmət eləsin.

**Elcan Xəlilov**
tələbə yoldaşı





# NADİR İNSANLARDAN İDİ

Seyfəddin nəinki Universitetdə, bütün həyatımda tanıdığım ən təmiz, ən yaxşı, doğma insanların başında gəlirdi. Tanıdığım gündən etibarən mənə həmişə dəstək olan, dost sözünü tam ifadə edən, qardaşım deyə biləcəyim insan idi. İstər Universitetdə, istərsə də digər yerlərdə həmişə üzü gülən, qarşısındakı insanın da üzündə təbəssüm yarada bilən nadir insanlardan idi. Magistratura pilləsinə hazırlaşdığımız dövrdə də öz bacarığı ilə seçilirdi. Məntiqlə bağlı sualların cavabının tapılmasında xüsusi istedadı var idi. Qəbul üçün lazım olan balı toplamasına baxmayaraq hərbi xidmətə getmək və xidmətini başa vurduqdan sonra təhsilini davam etdirmək istəyirdi. Çox cəsarətli və qorxmaz idi. Yaxın dostları ilə çox səmimi münasibət quran, çətin anlarımızda həmişə dəstək olan, özümüzü yaxşı hiss etməyimiz üçün əlindən gələni edərdi Seyfəddin. Xatirəmdə, qəlbimdə həmişə ölməz insan kimi yaşayacaq.

Hərbi xidmətdə olduğu dövrdə bizimlə ara-sıra telefonla danışardı. O zaman da bizə hər şeyin qaydasında olduğunu demişdi. Əsgərlikdə yaralanmasına baxmayaraq ailəsinə və bizə xəbər verməyib yenidən cəbhəyə yollandı. Vətən üçün, torpaq üçün əlindən gələni etdi, şəhidlik zirvəsinə ucaldı. Şəhid olduğu xəbərini aldığım an həyatımda bu qədər böyük bir yerə sahib olan insanın yoxluğu mənə çox pis təsir etdi. Sanki böyük bir boşluğa düşmüşdüm. Xəbəri aldıqdan bir saat sonra Beyləqana yola çıxdıq. Yol necə keçdi, nələr fikirləşdim, nələr hiss etdim... Həmin anlar çox çətin idi. Hələ özümüzü belə çarəsiz hiss etməmişdik. Seyfəddin qəhrəmancasına, son damla qanına qədər vuruşmuşdu, Vətən üçün canından keçmişdi, şəhid olmuşdu. Məzarı başında olarkən belə hələ də yoxluğuna inana bilmirdim. Sanki yenə gələcək və bizi qucaqlayıb, üzümüzü güldürəcəkdi... Bir yerdə keçirdiyimiz illər, yaşadığımız anlar, çəkdirdiyimiz şəkillər ondan bizə qalan xatirələr oldu.

Seyfəddinin və eləcə bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik. Onlar Azərbaycanın sınmaz, əyilməz ruhunu bütün dünyaya göstərdilər. Onların bizim üzərimizdəki haqları heç vaxt ödənməz. İnşallah haqlarını bizə

halal edərlər. Seyfəddinin timsalında Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərə Allahdan rəhmət diləyirəm. Seyfəddin mənim qəlbimdə, xəyallarımda, xatirələrimdə həmişə yaşayır və yaşayacaq.

**Eltun Vəliyev**
tələbə yoldaşı





# ƏN YÜKSƏK MƏQAMA UCALDI

Şəhidlik – şərəf, qeyrət, ucalıq zirvəsidir. Bu zirvənin sahiblərindən biri də Seyfəddin Dadaşovdur. Şəhidlərin hər biri Allah tərəfindən seçilmiş insanlardırlar. Onlar xüsusidirlər, dəyərlidirlər.

Seyfəddin 4 il bir yerdə oxuduğumuz vətənpərvər, gülərüz, ədəb-ərkanı, yardımsevərliyi, çalışqanlığı ilə seçilən tələbə yoldaşımdır. Belə bir Vətən oğlu ilə 4 il bir auditoriyanı bölüşmək qürurvericidir, şərəflidir. Seyfəddin Suqoşovuşan istiqamətində gedən döyüşlərdə sonuncu imtahanından uğurla, cəsarətlə keçdi və ən yüksək məqama ucaldı. Şəhidlər heç zaman ölməzlər. Seyfəddin Dadaşov bizim üçün hər zaman yaşayacaq. Biz onun haqqında keçmiş zamanda deyil, indiki zamanda danışacaq, xatirəsini əbədiləşdirəcəyik. Allah sənə rəhmət etsin, gülərüz şəhid Seyfəddin. Şəhadətin mübarək!

**Nərmin Əmirova**
tələbə yoldaşı



# Əsəd Cəmaləddin oğlu Əsədov

29 mart 1978-ci ildə Neftçala rayonunda anadan olmuşdur.

1995-1999-cu illərdə Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb.

12 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə* ***"Füzulinin azad olunmasına görə"*** *və* ***"Vətən uğrunda"*** *medalları ilə təltif olunub.*







# ŞƏHİD ƏSƏD ƏSƏDOV HAQQINDA MÜƏLLİMLƏRİNİN XATİRƏLƏRİ

Əsəd öz davranışları ilə ailəsinin və müəllimlərinin fəxri idi. Şəhidlik zirvəsinə yüksəlməklə bütün Azərbaycanın fəxrinə çevrildi. Bu zirvəyə onu ucaldan aldığı tərbiyə, Vətənə olan sevgi, eyni zamanda, düşmənə bəslədiyi böyük nifrət və qəzəb hissi idi. İşğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsi onun ən böyük arzusu idi. Universitetə qəbul olmaqla ailəsinə ən böyük sevinci yaşadan Əsəd qısa müddətdə həm müəllimlərinin, həm də qrup yoldaşlarının hörmətini qazanmışdı.

Bizim bir millət kimi birliyimiz, Əsəd kimi oğullarımızın Vətənə, obaya sədaqəti 44 günlük müharibədə özünü daha bariz şəkildə göstərdi. Milli dəyərlərimiz, milli ləyaqətimiz məhz xalqın potensialı olan belə oğulların çiynində yüksəlir.

Əsəd Sosial elmlər və psixologiya fakültəsinə qəbul olanda 17 yaşı var idi, amma bu 17 yaşlı gəncdə nə qədər böyük ürək, qeyrət, bir müdriklik var idi.... Biz Əsədi illər keçsə də elə xatırlayırıq: sakit təbiətli, təmkinli, qürurlu Əsəd.

Əsəd çox çalışqan idi, həm də pafosdan, göstəricilikdən uzaq bir tələbə idi. O tələbə ki, Vətəni sözdə yox, əməldə canından artıq sevirdi. Müharibədə qazilik də var, şəhidlik də. Şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək deməkdir. Əsəd mənəvi dəyərləri ilə, Vətəninə, elinə bağlılığı ilə bu zirvəyə yüksəlmişdir.

Adətən tələbələr müəllimlərini yadda saxlayır, onları özlərinə bir örnək götürür, amma Əsəd bizim hamımız üçün qürur, qeyrət nümunəsi oldu.

# ŞƏHİD ƏSƏD ƏSƏDOV HAQQINDA TƏLƏBƏ YOLDAŞLARININ XATİRƏLƏRİ

Əsədlə bağlı xeyli xoş xatirələrimiz var. Çalışqanlığı, yeni biliklər əldə etməyə cəhd etməsi, məsuliyyəti ilə daim seçilib Əsəd. Çox mədəni və nümunəvi bir insan idi. Bütün müəllimləri, eləcə də tələbə yoldaşları onun xətrini çox istəyirdi. Davranışı ilə hamının sevgisini və hörmətini qazanmışdı. Hamı onu intizamlı, ağıllı və məsuliyyətli tələbə kimi tanıyırdı. Əsəd bizim qrupda xasiyyət baxımından ən gözəl tələbə idi. Dərslərə çox məsuliyyətlə yanaşırdı. Bir insanda ola biləcək bütün müsbət və gözəl xüsusiyyətlər deyə bilərik ki, Əsəddə cəmləşmişdi. Onu xatırlayanda insanın üzü gülür. Yardımsevərliyi, cəsurluğu, dürüstlüyü ilə fərqlənirdi. Gözübağlı, tərəddüdsüz ona güvənəcəyimizi bilirdik.

Əsəd ona verilmiş ömür payını bizim dinc yaşamağımız üçün qurban verdi, Vətən yolunda şəhidlik zirvəsinə ucaldı. Sübut etdi ki, Vətən və torpaq sevgisi hər şeydən müqəddəsdir. Bu isə hər kəsə qismət olmur. Çünki şəhidlik adi ölüm deyil. O, özünün müqəddəs adı ilə gələcək nəsillərə örnək oldu!






Tarix yazan məzunlar
Bakı – BDU – 2021

www.bsu.edu.az
Ünvan: Bakı şəhəri,
AZ 1148, ak.Zahid Xəlilov küç., 33
Tel.: (+99412) 439 08 58 / 439 05 17
Faks: (+99412) 598 33 76
E-mail: info@bsu.edu.az